www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 yanvar 2016-cı il Cümə axşamı № 3 (6324) Qiymәti 50 qәpik

**Xəbər**

## Azərbaycanda dollar qıtlığı yarandı

yazısı səh.10-da

**Gündəm**

### Barak Obama İlham Əliyevi Vaşinqtona dəvət etdi



**Elxan Şahinoğlu:** "Bu dəvət Azərbaycan-Amerika münasibətləri üçün vacibdir"

yazısı səh.9-da

### "Azərbaycan" Nəşriyyatından qəzetlərə zərbə

yazısı səh.4-də

### ABŞ-da vəkil və hakimlər milyonlar qazanır, bizdə isə...

yazısı səh.6-da

### Müxalifət böhran masası təşkil etməyə hazırlaşır

yazısı səh.7-də

### Qarabağda müharibəni alovlandıra biləcək yeni qarşıdurma: Tehran- ər-Riyad

yazısı səh.13-də

### Tanınmış müxalif partiya lideri Smitlə dost çıxdı

yazısı səh.8-də

### Hökumət Qubad İbadoğlu ilə əməkdaşlıq edəcəkmi...

yazısı səh.4-də

### Ermənistan üçün fəlakətli yekun: 2015 iqtisadi çöküşü yaxınlaşdırıb

yazısı səh.11-də

### Bölgədəki yeni gərginlik Ankara və Bakıya nə vəd edir...

yazısı səh.9-da

### Eldar Mahmudovun kölgədə qalan "tətikçiləri"...

yazısı səh.3-də

### Ər evdə istilik olmamasından şikayət edən arvadını öldürdü

yazısı səh.14-də

### Devalvasiya gözəllik salonlarını da vurub

yazısı səh.15-də

## Daha bir "kredit oliqarxı" qandallandı

# CAHANGİR HACIYEVLƏ ELDAR MAHMUDOV ÜZLƏŞMƏSİ - ŞOK TƏFƏRRÜAT

"Globus Plaza"nın sahibi Dünyamin Xəlilov "maliyyə xəyanətinə" görə həbs olundu; o, rəhbəri olduğu "Globus Plaza"nın bir qrup işçisinin adına bankdan 3 milyondan artıq vəsait götürməkdə ittiham olunur; iddia edilir ki, sabiq bankir yenidən köçürüldüyü BMCMİ-də qudası Eldar Mahmudovla da üzləşdirilməlidir, bəlkə də bu artıq baş verib də...




yazısı səh.5-də

# İcra başçıları ölkəni kütləvi şəkildə tərk edib - siyahı

Prezidentin yerlərdəki nümayəndələri bayram günləri bahalı kurortlarda dincəliblər; indiki həssas dönəmdə rəsmi məzuniyyəti olmayan və PA-dan icazə almayan məmurların siyahısı tutulur; belələrinə ağır cəzaların veriləcəyi gözlənilir

yazısı səh.10-da



*Adil Qeybulla:*

**"Dərman istehsalı üçün lazım olan avadanlıqlar Azərbaycanda yoxdur"**

yazısı səh.12-də



*Zahid Oruc:*

**"Yeni durum ənənəvi neft hökumətinin dəyişilməsini tələb edir"**

yazısı səh.5-də



**Rusiya kriminalında yeni hesablaşma - "Lənkəranski" yenə hədəfdə**

yazısı səh.10-da

7 yanvar 2016

# İlham Əliyev Yardımlıda yol tikintisinə 1,4 milyon manat ayırdı



**Prezidenti İlham Əliyev Yardımlı rayonunun Yardımlı-Hamarkənd-Abbasabad avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən on min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Hamarkənd-Abbasabad avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Yardımlı Rayon İcra Hakimiyyətinə 1,4 milyon (bir milyon dörd yüz min) manat ayrılıb.**

Maliyyə Nazirliyinə bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

# Baş Prokurorluq Rüfət Səfərovla bağlı nə qərar verəcək?

**Alovlu YAP-çı Eldar Sabiroğlunun prokurorluq orqanlarından xaric edilən oğlu Rüfət Səfərov izahat vermək üçün Baş Prokurorluğa çağırılsa da o, bu dəvəti rədd edib. R.Səfərov bildirib ki, prokurorluq orqanlarının əməkdaşı olmadığı üçün qurumun Təşkilat-Analitik İdarəsi onu çağıra bilməz.**

Belə olan təqdirdə Baş Prokurorluq hansı addımı atacaq?

Suala cavab verən Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanovla musavat.com-a deyib ki, bu məsələ ilə bağlı açıqlama verəcəklər.

Prosesin hüquqi tərəfindən danışan hüquqşünas Müzəffər Baxış musavat.com-a açıqlamasında bildirib ki, əslində Rüfət Səfərovun qərarı hüquqi baxımdan tam doğrudur: "Onun açıqlaması həqiqətə söykənən fikirlərdir. Baş Prokurorluğun Təşkilat-Analitik İdarəsi prokurorluq işçilərinin fəaliyyətini yoxlaya bilər. Yəni yalnız bununla bağlı araşdırma apara bilər. Rüfət Səfərov da bildirir ki, prokurorluğun əməkdaşı olmadığı üçün çağırışa getmir. Bu baxımdan o, tam qanuna söykənən hərəkətə yol verir. Ümumiyyətlə, Azərbaycanda Baş Prokurorluq hüquq-mühafizə orqanından hüquq pozan bir orqana çevrilib. Təkcə xalqa deyil, həm də öz işçilərinə qarşı da qanunsuzluqlara yol verir. Həmin idarə onu birbaşa olaraq prokurorluğa məcburi şəkildə apara bilməz. Ancaq ola bilər ki, onun haqqında toplanan materialları Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə versinlər. Belə olduğu halda, əgər cinayət işi başlasalar, o zaman R.Səfərovun istintaqa məcburi qaydada gətirilməsi üçün tədbirlər görə bilərlər".

❑ Əli RAİS

# Müxalifət partiyaları bir araya gəldilər

**Yanvarın 6-da KXCP-nin qərargahında "Azadlıq" Siyasi Əməkdaşlıq Mərkəzinin Sədrlər Şurasının iclası keçirilib. Blokun Sədrlər Şurasının üzvü, Azadlıq Partiyasının sədri Əhməd Orucun musavat.com-a verdiyi xəbərdə deyilir ki, iclasda mərkəzin işinin təşkili məsələləri müzakirə olunub, əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi ilə bağlı ümumi razılığa gəlinib. Qurumun illik fəaliyyət proqramının hazırlanması ilə bağlı işçi qrup yaradılıb. Sədrlər Şurası üzvləri arasında iş bölgüsü aparılıb. Bundan başqa, "Azadlıq" ölkədəki iqtisadi böhran, milli düşərgənin fəaliyyətinin sistemləşdirilməsi məsələləri ətrafında da müzakirələr aparıb, uyğun qərarlar qəbul olunub.**

"Azadlıq" Siyasi Əməkdaşlıq Mərkəzinə KXCP, Azadlıq Partiyası, VİP, ALDP, Aydınlar Partiyası daxildir.

❑ E.SEYİDAĞA


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# AZAL-ın "qiymət oyunu"



**AZAL-ın son qiymət endirimi kampaniyası sosial şəbəkələrdə müzakirə mövzusuna çevrildi. Belə ki, bəzi sosial şəbəkə istifadəçiləri hesablamalar apararaq, qeyd etdilər ki, AZAL-ın endirimli qiymətləri əslində normal qiymətlərdən daha baha başa gəlir.**

**Bunu iqtisadçı ekspert Natiq Cəfərli** də musavat.com-a açıqlamasında təsdiqlədi: "AZAL rəsmi açıqlama yaydı və bir çox saytlar da belə təqdim etdilər ki, AZAL qiymətləri ucuzlaşdırıb. Söhbət "low-kost" biletlərdən gedir ki, 99 avroya olan bilet 89 avroya salınmışdı. Amma heç kim nəzərə almırdı ki, birinci devalvasiyadan sonra 99 avroya olan biletin qiyməti cəmi 114 manat edirdi. İndi ikinci devalvasiyadan sonra artıq 140 manata yaxın oldu. AZAL öncə qiymətləri avro ilə hesablamasına aydınlıq gətirməlidir".

**İqtisadçı vurğuladı ki, bu ucuz qiymətlər əslində vətəndaşlar üçün heç də ucuz deyil:** "AZAL avro ilə olan qiymətləri 10 avro endirsə də, manatla qiymətlər qalxıb. 89 avro bir istiqamətli qiymətdir. Əgər gedişi və dönüşü bir yerdə hesablasaq, bu, 178 avroya bərabər olur. Baqaja görə əlavə 50 manat ödənişi də nəzərə almalıyıq. Çünki "low-kost" bileti alanlar baqaja görə əlavə vəsait ödəməli olurlar. Bunu da nəzərə alsaq və həmin biletlərə yeməyin daxil olmadığını da hesablasaq, normal biletlərlə "low-kost" biletləri arasında elə bir fərq olmur. Bu, anormal bir haldır. Dünyada "low-kost" təcrübəsinə nəzər salsaq, bu, ucuz biletlərin hesabına vətəndaşları səyahətə cəlb etməkdir. Ancaq AZAL-ın siyasətində "low-kost" məntiqi itir".

**AZAL prezidentinin ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Paşa Kəsəmənski isə musavat.com-a açıqlamasında endirimlərin yaxın zamanlarda da davam edəcəyini, eləcə də ümumi qiymətlərə yenidən baxılacağını bildirdi:** "Mən əvvəl də bildirmişdim ki, bizdə, eləcə də bir çox ölkələrdə Beynəlxalq Aviasiya Təhlükəsizliyi Dəyərləndirməsi (IASA) adlı qurumun tələblərinə uyğun olaraq, biletlərin qiyməti avro ilə hesablanır. Biz bu yaxınlarda elan etmişik ki, qiymətlərə yenidən baxacağıq və yeni qiymətləri müəyyən edəcəyik. Bəzi uçuşların 89 avroya endirilməsi bizim sonuncu endirimimiz deyil, bundan sonra da belə kampaniyalarımız olacaq. Sosial şəbəkələrdə deyilənlər isə doğru deyil. Yazırlar ki, baqaj xidmətini və yeməyi də üstünə gələndə əvvəlki qiymətdən çox edir. Lakin bu, belə deyil. Əgər tək adamı hesablasaq, fərq bir qədər az alınır. Ancaq bir ailə gedirsə, bir neçə nəfər bir baqaj üçün ödəniş edir, bu zaman daha sərfəli olur. İnsanlar var ki, baqaj xidmətindən istifadə etmirlər, yemək istəmirlər. Bu, insanın seçimindən asılıdır. Ən vacibi odur ki, bu fərq "ekonomklas"ın 30 faizinə aiddir. Qalan 70 faizin qiyməti ilə müqayisə etsəniz, özünüz fərqi görəcəksiniz".

❑ Nərgiz LİFTİYEVA



# Ana ölümü ilə bağlı cinayət işi başlandı

**Bakıda baş verən ana ölümü ilə bağlı cinayət işi başlanıb. Bu barədə APA-ya Yasamal Rayon Prokurorluğundan bildirilib. Məlumata görə, başlanan cinayət işi Respublika Klinik Xəstəxanasında baş verən ölüm faktı ilə bağlıdır.**

Yanvarın 2-də saat 23 radələrində Göygöl şəhər Mərkəzi Xəstəxanasının 16 dekabr 2015-ci il tarixli göndərişinə əsasən "35-36 həftəlik hamiləlik, ölü döl, ciftin hissəvi ayrılması, hipoqlemekiya, anemiya, loporotomiya, aşağı seqmentdə qeysəriyyə əməliyyatı, birinci cərrahi doğuş, endogen intaksikasiya, qaraciyər hepotozu" diaqnozu ilə paytaxtın Yasamal rayon ərazisində yerləşən Respublika Klinik Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilməklə orada müalicədə alan, Gəncə şəhər sakini, 1993-cü il təvəllüdlü Ülviyyə Abbasovanın ölməsi faktına görə Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Ölümün səbəblərini müəyyən etmək üçün məhkəmə-tibb ekspertizası təyin edilib. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

# Saxtakarlıqla üzləşən əlil məhkumun işi yenidən məhkəmədə

## Rauf Sultanov: "Barəmdəki həbs tədbirinin digər alternativ qərarla əvəz olunmasını xahiş edirəm"



**Xəzər Rayon Məhkəməsində hakim Samir Mayılovun sədrliyi ilə əlil məhkum Rauf Sultanovun işi üzrə məhkəməyə hazırlıq iclası keçiriləcək. Hazırda Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılan R.Sultanov dələduzluqda ittiham olunur. Lakin bundan əvvəl keçirilən məhkəmə proseslərində məlum olub ki, ittihamın əsasını təşkil edən sənədlər ibtidai istintaq zamanı saxtalaşdırılıb. İttiham aktında Rauf Sultanovun imzası da digər şəxs tərəfindən icra olunub. Buna görə də Bakı Apelyasiya Məhkəməsi R.Sultanovun barəsindəki hökmü ləğv edərək işin Xəzər Rayon Məhkəməsində yenidən araşdırılması haqda qərar verib.**

R.Sultanov deyir ki, cinayət işinin matreallarında imzasının saxtalaşdırılması məhkəmə xətşünaslıq ekspertinin rəyi ilə təsdiqlənib: "Yanvarın 7-də iş üzrə Xəzər Rayon Məhkəməsində hazırlıq iclası olmalıdır. Lakin mənə məhkəmədən rəsmi çağırış verilmir. Belə bir halda mənim məhkəməyə vəsatətlərimi yazılı şəkildə təqdim etməyim də əngəllənir. Mənə şifahi çatdırırlar ki, məhkəmə olacaq. Yazılı vəsatətlər təqdim etməyim üçün heç bir imkanım yoxdur. Baş verənlər mənim məhkəmənin hazırlıq iclasında iştirakımı mümkünsüz edir. Buna görə də iş ibtidai istintaqa qaytarılmalıdır. Bu gün mənim istəyim odur ki, barəmdə seçilmiş qətimkan tədbiri alternativ tədbirlə əvəzlənsin. Qanunun tələbinə görə cinayət işinin icraatına xitam verilməli və barəmdə bəraət hökmü çıxarılmalıdır. Əgər mübahisə varsa da, mülki xarakterlidir. Barəmdəki həbs-qətimkan tədbirinin vaxtı yanvarın 7-də bitir. Mənim əlil kimi himayə olunmaq hüququm var. Barəmdə alternativ tədbir seçib məhkəməni aparsınlar. Mən kimisə öldürməmişəm, ağır cinayət törətməmişəm. Vergi ödəyicisi olaraq xidmət göstərmişəm və xidmət müqabilində pul alınıb. Bu, dələduzluq deyil. Mənim özümdən başqa atam, anam, qardaşım da əlildir. Prezidentdən, baş prokurordan, Xəzər Rayon Məhkəməsinin sədrindən müvafiq qərarın verilməsi, barəmdəki həbs tədbirinin digər alternativ qərarla əvəz olunmasını xahiş edirəm".

❑ E.MƏMMƏDƏLİYEV

# Jurnalist birlikləri Rasim Əliyevin məhkəməsini izləmir

**Yanvarın 5-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevin qətlə yetirilməsi ilə bağlı həbs edilən Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başlayıb. Prosesdə iştirak etmək istəyən media nümayəndələrinə maneə yaradılıb.**

Bəs ölkənin jurnalist birlikləri məhkəmə prosesini izləyirlərmi?

Məsələ ilə bağlı "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyevlə əlaqə saxladıq. A.Əliyev bildirdi ki, bəhs etdiyimiz məhkəmə prosesi ilə maraqlanmır: "Səbəb odur ki, mən bu işlərdən çoxdan çəkilmişəm. Çünki maraqlandığım hallar və adamlar təəssüflər olsun, elə bir vəziyyətdədirlər ki, bizim bir zaman mübarizə apardığımız sistem indi həmin şəxslərdən güc alır".

**Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli də musavat.com-a açıqlamasında bu məhkəmə prosesini izləmədiyini bildirib:**

"Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mətbuat xidmətinin rəhbəri vəzifəsinə təyin olunduqdan sonra daha çox vaxtımı bu qurumda keçirirəm. Ona görə də Demokratik Jurnalistlər Liqası ilə çox məşğul ola bilmirəm. Bu işlərə vaxtım olmur. Artıq bir ildən çoxdur ki, jurnalistlər liqasına elə də vaxt ayıra bilmirəm".

❑ Əli RAİS

# Bakının üç rayonunda su məhdudiyyəti olacaq

**Yanvarın 7-də Bakı şəhərinin Sabunçu və Nərimanov rayonlarının Böyükşor gölü ətrafında olan, eləcə də Nizami rayonunun Mikayıl Əliyev və Çobanzadə küçələri boyu abonentlərin bir hissəsinə içməli suyun verilməsində məhdudiyyətlər olacaq.**

"Azərsu" ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən "APA-Economics"ə verilən məlumata görə, məhdudiyyət Bakı şəhəri Heydər Əliyev prospektindən keçən magistral su xətlərinin dəyişdirilməsi işləri ilə əlaqədardır.

Yaranacaq narahatlıqla əlaqədar "Azərsu" ASC abonentlərdən üzr istəyir.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2016

**Ləğv edilmiş MTN-in sabiq rəhbərliyinin xeyli sahibkarın mal-mülkünün əlindən alınması ilə bağlı yeni faktlar ortaya çıxıb. Daha bir neçə sahibkarın yağmalanması ilə əlaqədar redaksiyamıza müraciət edilib. "Qaçaqmalçılıq" iddiası ilə "hesaba" oturdulan iş adamı Zaur Əzimovun yaxınları ölkə başçısı İlham Əliyevdən və DTX rəisi Mədət Quliyevdən kömək istəyirlər.**








# Eldar Mahmudovun kölgədə qalan "tətikçiləri"...

## İş adamlarına qənim kəsilən sabiq nazirin köməkçisi və əmisi oğlu Vüqar Mahmudov, şöbə rəisi Rafiq Səfərov haqda ilginc iddialar; "Zaur Əzimovdan 200 min, "Ağsarayın" sahibindən 50 min aldılar..."

**Müraciətdə yazılır:** "Eldar Mahmudovun ətrafında birləşən, sahibkarları soyan daha bir vəzifəli şəxs - ləğv olunmuş MTN-in Binəqədi rayon şöbəsinin rəisi vəzifəsini icra edən Rafiq Səfərovun qanunsuz hərəkətləri haqqında məlumat vermək istəyirəm. Qeyd etmək istərdik ki, Rafiq Səfərov MTN adından istifadə edib sahibkarların pul-paralarını, mal-mülklərini əllərindən alıb və əfsuslar olsun ki, törətdiyi əməllərə görə cəzalanmayıb. MTN adından sui-istifadə edib vətəndaşları talayan MTN Binəqədi rayon şöbəsinin rəisi vəzifəsini icra edən Rafiq Səfərovun "sağ əli" - müavini Heydər İslamov və bölmə rəisi Nicat Orucov olublar. Eldar Mahmudovun soyğunçu dəstəsinin kölgədə qalan üzvlərindən olan Rafiq Səfərov keçmiş nazirə yaxınlığı ilə tanınırdı. Rafiq Səfərov hələ nazirlikdə sıravi işçi olduğu vaxtlardan Eldar Mahmudovun yaxın qohumu, əmisi oğlu və köməkçisi Vüqar Mahmudov vasitəsilə həyata keçirilən çirkin əməllərə cəlb olunmuşdu və verilən "əməliyyat" tapşırıqlarını can-başla yerinə yetirirdi. Buna görə o, əvvəlcə MTN Xətai rayon şöbəsinə rəis müavini, daha sonra isə MTN Xəzər rayonu və MTN Binəqədi rayon şöbələrinə rəis təyin olunub. Xəzər rayonunda işlədiyi müddət ərzində Rafiq Səfərov MTN Xəzər rayon şöbəsinin bölmə rəisi Heydər İslamovla "möhtəşəm cütlük" halında sayı-hesabı olmayan qanunsuz əməllərə imza atıblar. Rafiq Səfərov Vüqar Mahmudovun köməkliyi ilə MTN monitorinq mərkəzinin işçisi Anar adlı şəxslə iş adamlarının və vəzifəli şəxslərin telefon danışıqlarına qulaq asaraq daha sonra onları şantaj ediblər.

Belə ki, MTN Xəzər rayon şöbəsinin rəisi vəzifəsini icra etdiyi zaman Xəzər Rayon İcra Hakimiyyətinin 7-8 qəsəbə nümayəndələrinə, bələdiyyə sədrlərinə İrana casusluqda və "Hizbullah" terror təşkilatını maliyyələşdirməkdə ittiham edəcəyi ilə hədə-qorxu gələrək, Rafiq Səfərov və Heydər İslamov yaxınlarının və özlərinin adına xeyli torpaq sənədləşdiriblər. Bu barədə Prezident Administrasiyasına yazılı məruzə edilib, həmin müraciət araşdırılması üçün Xəzər Rayon İcra Hakimiyyəti başçısına göndərilib. Lakin 1995-ci ildən Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyən Gülağa İslamov bu məlumatın "əsassız, şişirdilmiş və böhtan xarakterli olduğunu" deyib. Amma bundan sonra Rafiq Səfərov MTN Xəzər rayon şöbəsinin rəisi vəzifəsinə təsdiq olunmur, oradan MTN Xətai şöbəsinə rəis vəzifəsinin icraçısı kimi göndərilir.

O, Heydər İslamovun vasitəsilə Xəzər rayonu ərazində yaşayan Şuşa şəhərindən olan məcburi köçkünlərə aid torpaq sahələrini də hədə-qorxu ilə mənimsəyib. Rafiq Səfərov Heydər İslamovla birlikdə Xəzər rayonunda 8-10 milyon manat dəyərində olan torpaq sahələrini ələ keçiriblər. Səfərov-İslamov cütlüyünün qanunsuz əməlləri barəsində həmçinin ötən ay vəkil Ramiz Zeynalov da bəhs etmişdi... Əlavə edim ki, Xəzər rayonunda "Mayak" adlanan ərazidə R.Səfərov və Heydər Aslanovun hektarlarla torpaq sahələri var. Eyni zamanda Xəzər rayonunda dəniz kənarında ikisinin şərikli işlətdikləri restoranlar var: "Xan Çinar" restoranı, "Əncirlik" kafe-mağaza və avtomobilyuma məntəqəsi, "Embawood" şirkətinə ayda 7000 min manata icarəyə verdikləri 3 qatlı bina da mənimsədikləri mülklər sırasındadır. Həmin obyektlərin fotolarını da təqdim edirik".

**Müraciətdə deyilir ki, Rafiq Səfərov-Heydər İslamov cütlüyünün qanunsuz əməlləri səbəbindən xeyli iş adamının həyatı qaralıb:** "Onlar sahibkarların qazandığı pulları hədə-qorxu gəlməklə, şantajla əllərindən alıblar. Rafiq Səfərov və Heydər İslamovun göstərişi ilə 2015-ci ilin mart ayının 9-da guya "qaçaqmalçı qrup" üzvləri ilə bağlı tədbir keçirilib. Nəticədə "külli" miqdarda qaçaqmal aşkar edilib. Lakin iş əslində tam fərqlidir, çünki qaçaqmalçılarla mübarizə adı altında keçirilən bu əməliyyatın əsil məğzi 200 min dollar pulu ələ keçirmək olub. Və "qaçaqmalçı qrup"un rəhbəri kimi saxlanılan Əzimov Zaur Siyavuş oğluna məxsus, içərisində 100 min ABŞ dolları məbləğində xaricdə istehsal olunan siqaret markası olan yük maşını "Elit" ticarət mərkəzinin yaxınlığında qeyri-qanuni saxlanılaraq MTN Binəqədi şöbəsinə aparılıb. Heydər İslamovun nəzarəti altında aparılan "sorğudan" sonra siqaretin sifarişçisi "Ordubadlı Ramin" adlı ticarətçi də saxlanılaraq MTN Binəqədi idarəsinə gətirilir. "Ordubadlı Ramin" adı ilə tanınan şəxs Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Dəstə kənd sakini - Muxtarov Ramin Şirzad oğludur. Bakı şəhərində yaşayan Ramin Muxtarovun telefon danışıqları MTN-in Monitorinq Mərkəzində Anar adlı şəxs tərəfindən qanunsuz olaraq dinlənilərək Rafiq Səfərova məlumat otürülüb və sözügedən "qaçaqmalçı qrup" üzvlərinə qarşı "əməliyyat" keçirilib. Rafiq Səfərov öz növbəsində Anara hər uğurlu "əməliyyatdan" sonra bəlli bir məbləğ ödəyib.

İdarəyə gətirilən Raminin üzərində axtarış aparılaraq, sifariş etdiyi mala görə ödəyəcəyi 100 min ABŞ dolları MTN-çilər tərəfindən "müsadirə" olunur. Bu "qaçaqmalçılıq əməliyyatı" Rafiq Səfərov və onun yaxın dostu, çirkin əməllərinin həyata keçirilməsinə himayədarlıq edən sabiq nazirin əmisi oğlu - Eldar Mahmudovun köməkçisi vəzifəsində işləyən Vüqar Mahmudovun nəzarəti altında həyata keçirilib. Rafiq Səfərovun bu əməllərinə birbaşa Eldar Mahmudovun yaxın qohumu havadarlıq edirdi.

Öz havadarına arxayın olan Rafiq Səfərov Heydər İslamova "qaçaqmal"ın sahibi Z.Əzimov "istintaqdan yayındığına" görə, onun "Range Rover" markalı ağ rəngli avtomobilini qeyri-qanuni şəkildə şöbəyə gətirtdirib.

Bir müddət sonra Z.Əzimovun yaxınlarını Rafiq Səfərov çağırtdıraraq, "cinayət işi"nə xitam verilməsi razılaşdırıldıqdan sonra "sövdələşmə" aparıblar. Rafiq Səfərov havadarı V.Mahmudovun "razılığını" aldıqdan sonra "cinayətkar qrup"un üzvlərindən 200 min ABŞ dolları məbləğində pul aldıqdan sonra onları azad ediblər. Rafiq Səfərov MTN Xəzər şöbəsinin rəisi işlədiyi dövrdə də Z.Əzimovu "cinayət başında" yaxalamış və külli miqdarda rüşvət aldıqdan sonra azad eləmişdi. Zaur Əzimov Rafiq Səfərovun daim hədəfində olub.






Rafiq Səfərovun digər qurbanı Biləcəri qəsəbəsində yaşayan Məsimov Ruhlan Nəriman oğludur. Ruhlan Məsimov "Ağsaray" və "Vite palace" şadlıq evlərinin sahibidir. Rafiq Səfərov və Heydər İslamov Ruhlan Məsimovu MTN Binəqədi rayon idarəsinə çağıraraq, ona narkotik maddə və psixotrop vasitələri istifadə etməkdə ittiham edəcəkləri ilə hədə-qorxu gəliblər və 100 min manat istəyiblər. Əks halda, onu şərləyib cinayət məsuliyyətinə cəlb edəcəklərini deyiblər. Çarəsiz qalan iş adamı 50 min manat verərək canını qurtarıb.

Rafiq Səfərovun reketçilik əməllərində ona köməklik edən digər şəxs Nicat Orucovdur. Nicat Orucov da eynilə Heydər İslamov kimi MTN Xəzər şöbəsinin bölmə rəisi vəzifəsində işləyib.

Rafiq Səfərov MTN Binəqədi rayon şöbəsinə rəis təyin olunduqdan sonra Nicat Orucovun da MTN Binəqədi rayon şöbəsində bölmə rəisi təyin olunmasına vasitəçilik edib. Rafiq Səfərovun göstərişi ilə Nicat Orucov "əməliyyat" adı altında Xəzər rayon ərazisində əhəng daşlarını daşıyan yük maşınlarının qarşısını kəsərək onlardan aylıq 1500 manat xərac ödəmələrini tələb edib. Hətta yük maşınlardan birinin sürücüsü ərazindən uzaqlaşmaq istəyərkən Nicat Orucov şəxsi "Porsche" avtomobili ilə yük maşınının qarşını kəsib, bu zaman maşının altında qalacaqmış. Qanunsuz əməllərinin istədikləri nəticəni vermədiyini görən Nicat Orucov və rəhbərlik etdiyi "əməliyyat" qrupunun üzvləri hadisə yerindən uzaqlaşıblar.

Rafiq Səfərov, Heydər İslamov, Nicat Orucov kimi vəzifəsini sui-istifadə edərək soyğunçuluqla məşğul olan şəxslərin yeni yaradılmış DTX sıralarında qalması təəssüf doğurur. Rafiq Səfərov və onun əlaltılarının fəaliyyətinin ciddi araşdırılmasına ehtiyac var. Hazırda xeyli sayda sahibkar Rafiq Səfərovdan pullarını geri qaytarmasını tələb edirlər.

Rafiq Səfərov həmin məbləğin bir hissəsini zərərçəkmişlərə qaytarıb. Zərərçəkmiş şəxslərə pullar qaytarılarkən Rafiq Səfərov Vüqar Mahmudovla əlaqə saxlayıb və ondan pulların qaytarılmasında köməklik göstərməsini istəyib. Lakin Vüqar Mahmudovdan rədd cavabı alıb. Rafiq Səfərovun MTN-in hazırda həbsdə olan sabiq rəisi Elçin Quliyev, istintaq təcridxanasında həyatı ilə vidalaşan İlqar Əliyevlə Mərdəkan qəsəbəsində qonşuluqda villa sahibi olması onların eyni şəbəkənin adamı olmasının əyani sübutudur. Rafiq Səfərov MTN Xəzər rayon şöbəsinin rəis əvəzi işlədiyi zaman Mərdəkan qəsəbəsində torpaq sahəsi əldə edərək, İlqar Əliyev və Elçin Quliyev və özü üçün 3 villa tikdiriblər. Bütün xərcləri isə Rafiq Səfərov öz öhdəsinə götürüb. Həmçinin bu ətrafda Heydər Aslanov və Nicat Orucovun da villaları var. Evlər Mərdəkan qəsəbəsində DİN-in Polis Akademiyasının yaxınlığında yerləşir, onların CPRS-dən çəkilən şəkillərini, həmçinin "Embawood"a icarəyə verdikləri obyektin fotolarını da əlavə edirik. Rafiq Səfərov bu gün qanunsuz əməllərinə görə ondan cavab istəyən iş adamlarını müxtəlif mötəbər şəxslərin adından istifadə edərək, onların adamı olduğunu deyərək yenə də təhdid edir. Bundan başqa, Rafiq Səfərov Eldar Mahmudovun əmisi oğlu Yaşar Mahmudovla da yaxın dostluq edir. Rafiq Səfərov MTN Xəzər rayon şöbəsinin rəisi vəzifəsində işlədiyi vaxtlarda da dəfələrlə onun yanına gedib gəlirdi, əlaqələri Rafiq Səfərovun Binəqədi rayon bölməsinə rəis etdikdən sonra da davam edirdi. Bildirim ki, Yaşar Mahmudov bütün ölkə üzrə siqaret satışına nəzarət edir. Rafiq Səfərovla məlum olaylardan sonra Yaşar Mahmudovla görüşüb və 2015-ci ilin mart ayında "qaçaqmalçı qrup"dan "müsadirə olunaraq" ona təhvil verilən malların geri qaytarılmasını istəyib. Bildirib ki, malın Sahib adlı sahibi, əks təqdirdə, prokurorluğa şikayət edəcək. Lakin Yaşar Mahmudov da ona rədd cavabı verir".

**Yazıda adları keçən bütün şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ T.ƏHMƏDLİ

# Hökumət Qubad İbadoğlu ilə əməkdaşlıq edəcəkmi?





**Vahid Əhmədov:** "Ağıllı iqtisadçıdır, onun təkliflərinə də baxmaq olar"

**Azər Mehtiyev:** "Hökumət vətəndaş cəmiyyətini darmadağın edib, indi əməkdaşlığımı edəcək?"

**10 aya yaxındır ABŞ-da yaşayan və çalışan iqtisadçı alim, İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri, "Azərbaycan Demokratiya və Rifah" (ADR) Hərəkatının sədri Qubad İbadoğlu "Yeni Müsavat"a geniş müsahibəsində Azərbaycanın mövcud durumu ilə bağlı narahatlığını ifadə edib.**

Manatın devalvasiyası və neftin ucuzlaşmasından narahatlığını bölüşən iqtisadçı böhranlı durumdan çıxmaq üçün hökumətə təkliflər təqdim edəcəyini bildirib. Qeyd edək ki, Q.İbadoğlu ölkə xaricində olduğu müddətdə xeyli təcrübə toplayıb, beynəlxalq statuslu ekspertlər, həmçinin hökumət adamları ilə müzakirələrdə iştirak edib. O, ABŞ-da fəaliyyət göstərməklə yanaşı, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Beynəlxalq İdarə Heyətinin Kolumbiya, İsveçrə, Konqo və Ukraynada keçirilən toplantılarına da qatılıb. Bundan başqa, Açıq Hökumət Tərəfdaşlığı üzrə Meksikada keçirilən Qlobal Sammitin işində iştirak edib. Bununla yanaşı, azərbaycanlı alimin ABŞ daxilində də müxtəlif konfranslara qatılmaq imkanları olub. Əvvəllər Vaşinqtonda fəaliyyət göstərən Q.İbadoğlu hazırda Şimali Karolina ştatında, Dyuk Universitetində professor vəzifəsində çalışır. Bundan əlavə, Q.İbadoğlu Dünya Bankının təklifi ilə Qırğızıstan hökumətinə müəyyən tövsiyələr verib. Hətta dekabr ayında qırğız hökuməti ilə işləmək üçün Bişkekə gedib. Ölkənin baş nazirinin ofisində, parlamentində, ayrı-ayrı nazirlik və komitələrində görüşlər keçirib, parlamentdəki büdcə dinləmələrində iştirak edib. Göründüyü kimi, xarici ölkələrdə ekspertin milliyyətinə və təmsil olunduğu dövlətə fərq qoymadan onun sağlam fikirlərindən, dəyərli məsləhətlərindən geniş yararlanırlar. Bu mənada sual yaranır, bəs Azərbaycan hökuməti Q.İbadoğlunun təkliflərini nəzərə alar, yaxud onunla əməkdaşlıq edərmi?

Qeyd edək ki, Q.İbadoğlu öz tərəfindən əməkdaşlığa hazır olduğunu deyib, istənilən halda təkliflərini təqdim edəcəyini bildirib. Həmçinin deyib ki, Azərbaycanın neft erası başa çatdığı üçün konkret addımlar atılmalıdır. "Mən planlaşdırıram ki, yaxın günlərdə kompleks tövsiyələr paketi hazırlayıb Azərbaycan hakimiyyətinə təqdim edim. Çünki istənilən halda, dediyim kimi, Azərbaycanın güclü olmasının tərəfdarıyam. Nəzərə alsaq ki, ölkəmizin böyük problemləri var, o cümlədən Qarabağ məsələsinin həlli həm də iqtisadiyyatımızın güclü olmasından asılıdır"-deyə, iqtisadçı bildirib.

Ancaq Nazirlər Kabinetinin Q.İbadoğlu ilə əməkdaşlıq edib-etməyəcəyini dəqiqləşdirmək mümkün olmadı. Mətbuat xidmətindən bildirdilər ki, bu suala yalnız xidmət rəhbəri cavab verə bilər, o da tədbirdədir. Ekspertlər isə bu kimi təkliflərin nəzərə alınmasını faydalı sayırlar.

**Milli Məclisin deputatı Vahid Əhmədov "Yeni Müsavat"a bildirdi ki, İqtisadi siyasət komitəsi olaraq hökumətə təklifləri təqdim ediblər:** "Artıq hökumət məsələdən xəbərdardır. Təkliflər çoxdur, biz də gözləyirik, görək hansılar nəzərə alınacaq. Aldığım məlumata görə, hazırda təqdim olunan təkliflərə həm Mərkəzi Bank, həm də hökumət səviyyəsində baxılır. İstənilən halda bu təkliflərin nəticəsi olmalıdır". **V.Əhmədov Q.İbadoğlunun təşəbbüsünü təqdir etdi:** "Qubad İbadoğlu ağıllı iqtisadçıdır, onun təkliflərinə də baxmaq olar. Təklifləri varsa, versin mətbuata, ya göndərsin, baxaq. Burda heç bir problem yoxdur. Amerikada olduğu müddətdə onunla əlaqəmiz olmayıb, amma həmişə yaxşı təklifləri olub".

**İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev isə bu kimi təşəbbüslərə müsbət yanaşılacağına inanmır:** "Hökumətin nədənsə narahat olduğu belə hiss olunmur. Hökumət vətəndaş cəmiyyətini darmadağın edib, indi əməkdaşlığımı edəcək? Odur ki, mənim bu barədə heç bir məlumatım yoxdur".

**Media və İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Samir Əliyev qeyd etdi ki, rəhbərlik etdiyi təşkilat dövrü olaraq hökumətə təkliflər göndərir:** "Həmin təkliflərin bir hissəsi nəzərə alınır. Azərbaycanda xaricdə təhsil alan və işləyən xeyli sayda ekspertlər var. Hökumətin onların təcrübəsindən yararlanması çox faydalı olardı".

❑ **Cavid TURAN**

# "Azərbaycan" Nəşriyyatından qəzetlərə zərbə

## Redaktorlar qiymət artımından narazıdır

**"Azərbaycan" Nəşriyyatı manatın devalvasiyasından sonra ölkəyə gətirilən poliqrafiya məhsullarının qiymətinin kəskin artması səbəbindən çap xərclərini artırıb.**


AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ — ADMINISTRATIVE DEPARTMENT OF THE PRESIDENT OF AZERBAIJAN REPUBLIC
"AZƏRBAYCAN" NƏŞRİYYATI — PUBLISHING HOUSE "AZERBAIJAN"

№6/69-06-01 2016 il

"Yeni Müsavat" qəzeti redaksiyasına

Respublikaya gətirilən bütün növ poliqrafiya materiallarının qiymətlərinin kəskin artması səbəbindən "Azərbaycan" nəşriyyatı çap xərclərinə dəyişikliklər etmək məcburiyyətindədir.

Bununla ədaqədar olaraq, 05.01.2016-cı ildən etibarən çap xərcləri 25% artırılacaqdır. "Azərbaycan" nəşriyyatının rəhbərliyi həmin tarixdən etibarən çap xərclərinin yeni qiymətlərlə ödənilməsini Sizdən xahiş edir.

Bu gün nəşriyyat çap etdiyi qəzetlərin redaksiyalarına məktub yollayaraq, qiymətləri birdən-birə 25 faiz artırdığını elan edib.

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** "Azərbaycan" Nəşriyyatının bu qərarı ilə bağlı açıqlama verərək, bildirib ki, qərar məyusluqla qarşılanıb.

Onun sözlərinə görə, qəzetlər çap qiymətlərinin artmayacağına ümid edirdilər: "Hökumətin anonsları ümid verirdi ki, çap xərcləri artırılmayacaq. Təəssüf ki, buna gedildi və "Azərbaycan" Nəşriyyatı qiymətləri artırmaq məcburiyyətində qaldı".

**Ələsgər Süleymanovun fikrincə, bu, vəziyyəti onsuz da ağır olan çap mediasının sonu anlamına gəlir:** "Onsuz da qəzetlər çap xərclərini vaxtında və tam şəkildə ödəyə bilmirdilər, nəşriyyata borc yaranırdı. Qiymət artımından sonra yığılan borcların həcmi daha da artacaq. Təbii ki, sonsuzluğa qədər bu cür davam edə bilməz. Borcları artan qəzetlər fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalacaqlar".

"Yeni Müsavat"ın baş direktoru hökumətin məsələyə müdaxilə edəcəyinə və qəzetlərin maliyyə problemləri üzündən məhvinə yol verilməyəcəyinə ümid etdiyini də bildirdi.

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərif bildirdi ki, bu qərardan sonra da qəzetlərin vəziyyətinin ağırlaşacağını nəzərə alaraq, hökumətə təkliflər göndərəcəklər:** "Bizə də o məktub daxil olub. Rəsmi xəbərdarlıqdan əvvəl şifahi xəbərdarlıq da edilmişdi. Ona görə də biz məcburiyyət qarşısında qalıb, 10 qəpik artıma getdik. Hər halda, bu da artırılan 25 faizi təmin etmir. Amma biz bu artıma getməyə məcbur idik. İndi sonrakı addımlarımız da hadisələrin gedişindən asılı olacaq. Zərurət olsa, qiymətlərə yenidən baxacağıq. Həmçinin səhifələrin sayının azaldılması, qiymətlərin artırılması, ixtisarların edilməsi də istisna deyil. Bundan əlavə, biz qarşıdakı günlərdə mətbuat vasitəsilə hökumətin müəyyən dairələrinə öz təkliflərimizi də göndərəcəyik. Yeni hökumət reklam bazarı və kağızların daşınma xərcləri ilə bağlı düşünməlidir. Bu məsələdə, eləcə də sadələşdirilmiş vergi məsələsində güzəştlər etmək, mətbuata ayrıca baxmaq olar. KİVDF birbaşa nəşriyyatlara kağız üçün yardım göstərə bilər. Müəyyən tədbirlər görülsə, qəzetləri bu ağır vəziyyətdən çıxartmaq olar".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirdi ki, nəşriyyatın çap xərclərini artırması vəziyyəti daha da ağırlaşdırır:** "Bu, artıq ikinci dəfədir ki, çap xərcləri artırılır. Birinci devalvasiyadan sonra da 32 faiz qiymət artımı olmuşdu. O zaman da qəzetlərin etirazları hər hansı rol oynamadı. İndi də heç bir rol oynamayacaq. Ona görə də məcburuq ki, bu qərarla razılaşaq. İmkanımız olsa, fəaliyyətimizi davam etdirəcəyik, imkanımız çatmasa, başqa variantlar düşünəcəyik. Böhran olduğu üçün jurnalistlərin əmək haqlarının artırılmasına da ehtiyac var. Həqiqətən də çap xərclərinin qaldırılması bizim vəziyyətimizi ikiqat ağırlaşdırır".

**"Gündəlik Teleqraf" qəzetinin baş redaktoru Aynur Camal da bildirdi ki, bu, arzuolunan deyildi:** "Mən də qəzetin çap işi ilə məşğul olan şəxslərlə bu informasiyanı dəqiqləşdirəcəyəm. Bizim işlədiyimiz nəşriyyat hələ ki mənimlə bu haqda heç nə danışmayıb. Vəziyyətin gedişatından belə görünür ki, ölkədə hər sahədə qiymətlər artacaqsa, nəşriyyatın da qiymətləri artırması normaldır. Sadəcə olaraq, mən düşünürəm ki, Azərbaycanda fəaliyyət göstərən nəşriyyatlar nəzərə almalıdırlar ki, biz çap mediasından gəlir götürə bilmirik. Qəzetdən gələn gəlir bizim işçilərimizin maaşına, qəzetin çap xərclərini ödəməyə güclə çatırdı. Əgər biz qəzet satışından gəlir əldə edə bilmiriksə, qəzetin qiymətini artırmırıqsa, o zaman təbii ki, nəşriyyat qiymətləri qaldırsa, biz bundan əziyyət çəkəcəyik. Mən düşünürəm ki, qəzet redaktorlarının toplaşıb, bu məsələni müzakirə etməsinə ehtiyac var".

**"525-ci qəzet"ın baş redaktoru Rəşad Məcid isə bu qərarın gözlənilən olduğunu bildirdi:** "Biz gözləyirdik ki, nəşriyyat qiymətləri artıracaq. Bizə də bu barədə bildiriş daxil oldu ki, çap xərcləri 25 faiz artırılıb. Hər halda, düşünürük, bir çıxış yolu tapmağa çalışırıq. Ancaq qəzetin qiymətini artırmayacağıq".

❑ **Nərgiz LİFTİYEVA**

# YAP niyə nazirlərin mətbuat konfranslarını təşkil etmir?

## Hüseyn Paşayev: "Biz belə bir ənənəni formalaşdıra bildik"



Hüseyn Paşayev

**Yeni Azərbaycan Partiyası (YAP) bir vaxtlar öz qərargahında bəzi nazirlərin, komitə sədrlərinin mətbuat konfransını təşkil edirdi. Uzun müddətdir ki, jurnalistlər üçün bu cür tədbirlər dayandırılıb.**

**YAP-ın mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev** bunun səbəblərini musavat.com-a açıqlayıb: "Çoxdan bu cür mətbuat konfransları olmur. Biz qərargahda bütün dövlət strukturları rəhbərlərinin mətbuat konfranslarını keçirirdik. Belə bir qərarı qəbul edərkən qarşımızda duran vəzifə o idi ki, informasiya qıtlığını arada qaldıraq, məmurlarla jurnalistlər arasında canlı ünsiyyət yarada bilək. Biz istəyirdik ki, informasiya blokadasını aradan qaldıraq. Kütləvi informasiya vasitələrinin nümayəndələri ilə dövlət qurumları arasında canlı ünsiyyət yarada bilək və jurnalistlərin həmin şəxslərə birbaşa çıxışını təmin edə bilək. Həmin dövrdə mətbuat nümayəndələri informasiya qıtlığı şəraitində yaşayırdılar. İnformasiya çatışmazlığından əziyyət çəkirdilər. Yeni Azərbaycan Partiyasının rəhbərliyi bütün bunları nəzərə alaraq, nazirlərin, komitə sədrlərinin, digər qurumların birinci şəxslərinin partiyanın qərargahında mətbuat konfransını təşkil etdi. Bu, mətbuat tərəfindən çox müsbət qarşılandı və proses xeyli müddət davam etdi. Biz hesab etdik ki, artıq qarşımıza qoyduğumuz məqsədə nail ola bilmişik. Dövlət qurumlarının rəhbərləri ilə kütləvi informasiya vasitələrinin nümayəndələri arasında münasibətlər yarada bilmişik. Artıq hesab edirik ki, bu cür mətbuat konfranslarının keçirilməsinə ehtiyac yoxdur. Biz belə bir ənənəni formalaşdıra bildik. Nazirlər, komitə sədrləri, şirkət rəhbərləri dövrü olaraq özləri kütləvi informasiya vasitələri ilə görüşlər keçirirlər, onlara lazım olan informasiyanı çatdırırlar. Digər tərəfdən də Yeni Azərbaycan Partiyası davamlı olaraq həmin şəxslərin mətbuatı, cəmiyyəti düşündürən məsələlərlə bağlı müsahibələrini yap.org.az saytında təşkil edir, yayımlayır. Bu da bir tərəfdən öz müsbət rolunu oynamaqdadır. Ona görə bu gün yeni qərargahda xüsusi olaraq həmin şəxslərin mətbuat konfransı keçirilmir".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2016

# Daha bir “kredit oliqarxı” qandallandı

**Ötən ilin dekabr ayının 4-də həbs edilən Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev 1 saylı Bakı İstintaq Təcridxanasından yenidən Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİ) köçürülüb. Bu barədə “Trend”ə Cahangir Hacıyevin vəkili Aqil Layicov məlumat verib.**



## Cahangir Hacıyevlə Eldar Mahmudov üzləşməsi - şok təfərrüat

“Globus Plaza”nın sahibi Dünyamin Xəlilov “maliyyə xəyanətinə” görə həbs olundu; o, rəhbəri olduğu “Globus Plaza”nın bir qrup işçisinin adına bankdan 3 milyondan artıq vəsait götürməkdə ittiham olunur; iddia edilir ki, sabiq bankir yenidən köçürüldüyü BMCMİ-də qudası Eldar Mahmudovla da üzləşdirilməlidir, bəlkə də bu artıq baş verib də...

Vəkil bildirib ki, C.Hacıyev ötən il dekabrın 30-da BMCMİ-yə gətirilib və hələ də orada saxlanılır. Vəkilin dediyinə görə, C.Hacıyevi istintaq hərəkətləri ilə əlaqədar ora aparıblar və 10 gün orada saxlanılacaq. Xatırladaq ki, sabiq bankir barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. O, Cinayət Məcəlləsinin 178.3.2 - dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə və 179.3.2 - külli miqdarda mənimsəmə maddələri ilə ittiham edilir. Sabiq bank rəhbəri səlahiyyətlərindən sui-istifadə edərək, dövlət pulunun talan edilməsində, müvafiq sənədlər olmadan yaxın ətrafına milyonlarla dollar məbləğində kreditlər ayırmaqda, mənimsəmə və israfçılıqda, özünə yaxın oliqarxların “çirkli pullar”ının yuyulmasında və digər cinayətlərdə ittiham olunur. C.Hacıyev barədə həbs sanksiyasını şəxsən baş prokuror Zakir Qaralovun imzaladığı deyilir.

C.Hacıyevin gözlənilmədən yenidən BMCMİ-yə niyə qaytarılması barədə rəsmi məlumat yoxdur.

“Yeni Müsavat”a daxil olan xəbərə görə isə C.Hacıyevi “iki mühüm adamın” ifadəsi üçün BMCMİ-yə qaytarıblar. Onlardan biri sabiq deputat, “Globus Plaza”nın sahibi Dünyamin Xəlilovdur. “Qafqazinfo”nun xəbərinə görə, keçmiş deputat bugünlərdə həbs olunub. Əslində Nərimanov Rayon Məhkəməsi onun barəsində ötən il mayın 15-də 4 aylıq həbs-qətimkan tədbiri seçmişdi. Lakin D.Xəlilov hansısa səbəbdən həbs edilməmişdi və bir neçə dəfə BMCMİ-də dindirilmişdi. D.Xəlilov Beynəlxalq Bankdakı maliyyə yeyintilərində iştirakçılardan biridir. O, rəhbəri olduğu “Globus Plaza”nın bir qrup işçisinin adına bankdan 3 milyondan artıq vəsait götürməkdə ittiham olunur.

D.Xəlilov 2005-ci ildə Beynəlxalq Bankın səhmdarı olub. 2005-2010-cu illərdə parlamentin deputatı olmuş D.Xəlilovun Beynəlxalq Bank işində adı hallanan, hazırda Fransaya sığınan Xəqani Bəşirovla birgə işlədiyi “General Construction” Məhdud Məsuliyyətli Cəmiyyəti də Beynəlxalq Bankdan kredit alıb qaytarmayan şirkətlərdəndir. Britaniyanın məşhur “Harvey Nichols” brend geyim mağazaları “General Construction” şirkəti ilə bağlanmış müqavilə əsasında “Globus Plaza” ticarət mərkəzində fəaliyyətə başlasa da, bugünlərdə müqaviləni pozaraq ölkəni tərk edib.

C.Hacıyevin BMCMİ-də D.Xəlilovla üzləşməsinə ehtiyac yarandığından bu addım atılıb. Amma bir mənbə redaksiyamıza bu qəfil “ekstradisiya” ilə bağlı daha bir sensasion xəbər verib. Qaynağımız iddia edir ki, C.Hacıyevi BMCMİ-də qudası, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla da üzləşdirilməlidir, bəlkə də bu artıq baş verib...

İddiada deyilir ki, C.Hacıyev vəkili vasitəsilə mediaya qudasını satmadığını bəyan etsə də, istintaqda kredit mənimsəmələrində həm sabiq nazirin, həm də ləğv olunan MTN-in bəzi yüksək rütbəli əməkdaşlarının iştirakına dair təkzibedilməz sübutlar var.

Heç kimə sirr deyil ki, oktyabr ayının 17-də E.Mahmudovun “vurulması” ilə başlayan “MTN işi” əslində Beynəlxalq Bank qalmaqalının davamı idi. Tezliklə məlum oldu ki, MTN-də baş vermiş cinayətlər, sahibkarların soyulması prosesi bir çox hallarda Beynəlxalq Bank vasitəsilə həyata keçirilib, bütün parası alınan iş adamına “kredit sənədi” imzaladıb, pullar isə mənimsənib. O cümlədən ötən ilin fevralında baş verən ilk devalvasiyada da qudalar əlbir olub milyonlar qazanıblar. Belə ki, devalvasiya olacağı haqda əvvəldən xəbərdar olan E.Mahmudov C.Hacıyevin vasitəsilə köhnə tarixlə valyuta mübadiləsi həyata keçiriblər. Qudalar bu əməliyyatda böyük məbləğdə manatı köhnə tarixlə, yeni devalvasiyadan əvvəlki valyuta kursu ilə mübadilə edib. E.Mahmudovla C.Hacıyev isə bu yolla milyonlarla dollar irəli düşüblər.

İddia rəsmi təsdiqlənərsə, bu o deməkdir ki, C.Hacıyev təkcə üzləşməyə deyil, həm də E.Mahmudovu “özü ilə aparmaq” üçün BMCMİ-yə gətirilib.

Digər bir qaynaq isə “Yeni Müsavat”a bildirib ki, Cahangir Hacıyevin Bakı İstintaq Təcridxanasından mediaya məktub göndərməsi hakimiyyəti çox ciddi şəkildə qıcıqlandırıb. Onun, bu qədər olanlara rəğmən, özünü təmizə çıxarmaq cəhdləri, sərbəstliyi “mən suçsuzam” mesajları dövlətin başında dayananları müəyyən addımlar atmağa vadar edib. C.Hacıyevin BMCMİ-də saxlanması o deməkdir ki, sabiq bankir daha ciddi nəzarət altına alınıb.

❑ **“Yeni Müsavat”**

# “Prezident öz komandasını ciddi sınağa çəkib”

## Zahid Oruc: “Yeni durum ənənəvi neft hökumətinin dəyişilməsini tələb edir”

**Neft gəlirlərinin azalması və hökumətin büdcəyə qənaət etmək məcburiyyətində qalması bir çox paralel strukturların ləğvini gündəmə gətirib. Eləcə də yeni iqtisadi şəraitdə günbəgün dəyişən şərtlərə uyğun çevik hökumətin qurulması gündəmdədir. “Çevik hökumət” modelinin qurulması həm də idarəçilikdə kənarda qalmış, sadəcə, dövlət büdcəsini “əritmək”lə məşğul olan məmur ordusunun da vəzifədən uzaqlaşdırılması deməkdir. İctimaiyyətin müzakirəsində olan bu məsələyə hökumət komandasında da münasibət birmənalı deyil. Ekspertlər isə yeni şəraitdə bu islahatların həyata keçirilməsinin vacibliyindən danışırlar.**

**Deputat Zahid Oruc** da “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, yeni durum ənənəvi neft hökumətinin dəyişilməsini tələb edir: “Hökumətin fəaliyyətinə uyğun olaraq onu müxtəlif adlarla çağırmaq olar. Yeni "asan hökumət" modeli, “çevik hökumət” modeli, elektron hökumət modeli və sair. Bunlar mahiyyətcə vətəndaş üçün zamanında çox təcili tədbirlər görməyi bacaran, iqtisadi və siyasi proseslərin tələblərini dəqiq görən və bunu idarə edən, beynəlxalq münasibətlər sisteminə rəğmən özünü qorumağı bacaran dövlətlər ayaqdadır və onlara münasibət də yüksək olur. Bu mənada etiraf etmək lazımdır ki, neft dövrünün hökuməti indi yeni çağırışlar qarşısındadır. Biz bununla bağlı ciddi çağırışlar verməkdəyik ki, asan pullara qərar vermək, onları müxtəlif layihələrə yönəltmək indi məsələnin çox kiçik bir hissəsidir. İndi önəmli olan neftdən kənar vəsaitlərin qazanılması üçün planları hərəkətə gətirməkdir. Bu daşımalar sistemindən tutmuş yeni texnoloji avadanlıqlara qədər, iqtisadiyyatda innovasiyaların tətbiqi, idxal və ixracın stimullaşdırılması, onun şəffaf qaydada aparılması, inhisarçılığın ləğvi və sairəni nəzərdə tutur".

**Məclis üzvü yeni hökumət modellərinin Azərbaycanda da uğurla reallaşacağına inandığını vurğuladı:** “Bu model bütövlükdə ölkənin xeyrinədi. Yəni yalnız bir qrup iş adamları hansısa faydalar götürəcəklər, əvəzində orta və kiçik sahibkarlıq inkişaf etməyəcəksə, bir-iki devalvasiya fonunda həmin ticarət mühitinin süstləşməsi, qeyri-müəyyənlik, panika, vətəndaşların əllərindəki vəsaitləri xarici valyutaya çevirib gözləmə mövqeyi tutması avtomatik olaraq hamının ziyanına işləmiş olacaq. Ona görə də hökumət yeniləşmə mövqeyindədir və cənab prezident bu yöndə özünün ilk addımlarını 2015-ci ildə atdı. Etiraf etmək lazımdır ki, bəlkə də devalvasiyanın məlum təsirləri, milli təhlükəsizlik nazirinin vəzifədən azad edilməsi, yoxlamaların azaldılması, 2016-cı ildən başlayaraq gömrük sistemində broker xidmətlərinin tamamilə ləğvi, idxal və ixracın tam qanuni mexanizmlərlə aparılması məsələsini bizə tam dəyərləndirməyə imkan vermir. Halbuki bu, hökumətin fəaliyyəti üçün kifayət qədər mühüm və yeni məqamlardır. Ona görə də mənim aləmimdə ölkə başçısı öz komandasını çox mühüm bir sınağa çəkmiş oldu, onun baxışlar sisteminə, hərəkət sürətinə, çevik qərarlarına uyğun olmayan şəxsləri biz yeni dövrdə yaxın ki, hökumətdə görməyəcəyik”.

**Zahid Oruc qarşıdakı dövrdə bir neçə dövlət strukturunun birləşəcəyini istisna etmədiyini bildirdi:** “Bunlar, sadəcə, mexaniki birləşmə olmayacaq, onların fəaliyyətinin istiqamətinə görə müəyyənləşdiriləcək. Həm də şişmiş aparatlardan azad olmağımız üçün bunlar baş verəcək. Məmur ordusunun saxlanılmasına xərclənən vəsait dünya ölkələrində Azərbaycanla müqayisədə kifayət qədər yüksək rəqəmlərdir. Bu cür vəsaitlərin məmurlara deyil, vətəndaşlara xərclənməsi daha yaxşı olardı. Bir çoxları deyirlər ki, biz mexaniki ixtisar təklif edirik. Lakin bəzi peşəkarları mexaniki ixtisar yolu ilə komandadan kənarlaşdırmaq da heç işimizin xeyrinə olmazdı. Nazirliklərin birləşdirilməsi qanunvericilik əsasında və dövlət qulluğunun şərtlərinə uyğun aparılmalıdır. Orada bacarıqlı insanlar yer almalıdırlar, ancaq eyni zamanda ayağının biri biznes sektorunda olanlar da artıq bu fəaliyyətə dönüb, lakin şəffaf, normal, inhisarçılıqdan kənar, idxal və ixracın sərbəst olduğu bir ölkədə fəaliyyətlərini həyata keçirməlidirlər. Bu səbəbdən onlar vəzifədən kənarda qalmaqlarını faciə kimi qarşılamayacaqlar. Məsələnin digər tərəfi isə odur ki, neft dövrünün hökuməti və neft dövrünün komitələri, agentlikləri və səhmdar cəmiyyətləri mövcuddur. Hazırkı şəraitdə rəqabət qabiliyyəti olmayan qurumlar, sadəcə, yaşamırlar, onların fəaliyyətinə ehtiyac olmur. Mən bir faktı da qeyd edim ki, əhalinin 100 min nəfərinə düşən məmur sayına görə bizdə rekord rəqəmlər mövcuddur. Ancaq bir yandan da bu qurumların bir çoxunun fəaliyyəti vətəndaşlar üzərində rüşvət tələsi yaratmağa xidmət edib. Onların fəaliyyətinə nə zərurət var?



**“Bir çox dövlət qurumunun fəaliyyəti vətəndaşlar üzərində rüşvət tələsi yaratmağa xidmət edib”**

Bir şöbə səviyyəsində olan qurumlara biz böyük ştat heyəti, maşın və avadanlıqlar, ödəmələr və sair ayırmışıq. Dövlət Standartlaşdırma və Patent qurumundan tutmuş, buna bənzər müxtəlif agentlik və səhmdar cəmiyyətlər də dediyimiz işi aparırlar. Dövlət üçün bu, yük deməkdir. Dövlət büdcəsinin böyük hissəsini buna ayırmaq o deməkdir ki, iqtisadiyyata, sosial sferaya, tibb sektoruna, təhsilə o vəsaitlər qoyula bilmir. Ona görə də SOCAR brendi altında bizim həyata keçirdiyimiz tikinti layihələri əvəzinə, bu ölkənin coğrafiyasından yararlanmağı bacaran, daşımalara meydan verən, innovasiyaları tətbiq etməyi bacaran, xaricdə təhsil alıb, ölkədəki proseslərdən baş çıxaran insanlara meydan verilməlidir”.

**Deputat struktur islahatlarının ölkə üçün müsbət nəticələrə yol açacağını da qeyd etdi:** “Kimdəsə neftin qiymətinin aşağı düşməsinin ikili sevinci var. Bir qisim hesab edir ki, bu, hakimiyyət dəyişikliyinə səbəb olacaq - xəstə bir sevincdir, vətəndaşın yaşadığı problemlərə sevinmək olmaz. Ancaq ikinci bir qisim də var ki, daha realist iqtisadiyyat qurmaq, manatın sabitliyini təmin etmək, onun arxasında dayanan iqtisadi bazanı möhkəmləndirmək, vətəndaşların gəlirlərini artırmaq, ölkənin ümumdaxili məhsulunu neftdən kənarda formalaşdırmaq naminə bu resursun qiymətinin aşağı düşməsi o qədər də faciə deyil. Azərbaycan insanı ona borclu deyil ki, hər gün durub London birjasını izləsin. Bu problemdən hamımızın azad edilməyimiz üçün hökumətin fəaliyyəti optimallaşmalıdır, o asan modeldə XİN, DİN, təhlükəsizlik orqanlarını, silahlı qüvvələri çıxmaq şərtilə, yerdə qalan qurumların hamısının fəaliyyəti asanlaşacağı təqdirdə, hamımız onun faydasını hiss edəcəyik, ölkədə iqtisadi şərait dəyişəcək. Bu da gələcəkdə məmur sisteminin, bürokratik sistemin də dəyişilməsinə səbəb olacaq”.

❑ **Nərgiz LİFTİYEVA**



# Həbs düşərgəsinə dönmüş ölkənin bombası

Xalid KAZIMLI

**Elə bir gün olmaz ki, dünyanın ən qapalı ölkəsindən - Şimali Koreyadan hansısa heyrətdoğurucu xəbər gəlməsin.**

Görünür, Şimali Koreya heç də öz rəhbərlərinin düşündüyü qədər də qapalı deyil - dışarıya xeyli sayda informasiya sızdıranlar var. Sadəcə, bayırdan ölkəyə heç bir informasiya sızmır.

Eyni zamanda orası da var ki, Şimali Koreyanın gənc lideri Kim Çen In şöhrətpərəst adamdır, özünün, ölkəsinin adının dünya mediasında hallanmasından ləzzət alır.

Ancaq yüzdə doxsan doqquz halda Şimali Koreya haqqında yazılanlar mənfi səciyyəlidir, ölkənin zombilər yuvasına dönməsindən, gənc diktatorun qəddarlığından, aclıqdan, səfalətdən bəhs edir.

Budur, xəbərlər yayılıb ki, "Şimali Koreya hidrogen bombasını uğurla sınaqdan keçirib". Ardınca ikinci xəbər gəlib: "Şimali Koreyada nüvə sınağı keçirilən yerdə zəlzələ baş verib".

Daha bunun harası uğurlu sınaq oldu ki, bu partlayış yer altındakı tektonik süxurları hərəkətə gətirib, elə startdaca zəlzələ yaradıb, bundan sonra, kim bilir, necə zəlzələlərə səbəb olacaq.

Öz ölkəsində bir nəfər də yoxdur (və ola bilməz) ki, Kim Çen Ina, onun zombilərdən ibarət əyanlarına, yaltaq generallarına "hidrogen bombası nəyinizə lazımdır, ölkə səfalət içindədir" desin.

Bu sözləri nəinki deyənləri, hətta fikrindən keçirənləri belə top ağzına qoyub atarlar, külü də tapılmaz.

Bəli, 21-ci əsrin bu vədəsində dünyada belə bir dövlət, belə bir rejim də var. Milyonlarla insanı geniş bir ərazidə tikanlı məftillərlə dövrələnmiş düşərgədə məhbusa çeviriblər.

Sözün əsl mənasında belədir. Bu yaxınlarda bur rus rejissor Şimali Koreyada çəkdiyi filmdən və orada gördüklərindən danışmışdı, adam sadəcə olaraq heyrətlənirdi.

Heç demə, zülmlə, repressiyalarla, dinənin dilini kəsməklə, görənin gözünü çıxarmaqla bütöv bir ölkəni həbs düşərgəsinə çevirmək, hər kəsi dustaq etmək mümkündür.

"Ulu rəhbər"lərin bu ideyasına dəstək verən məmurlar və dustaqlara nəzarət edəcək konvoylar kontingenti tapmaq çox asandır. Ölkə dustaqlıqdan çıxıb konvoy olmaq istəyənlərlə dolub-daşır.

Rusiyalı rejissor belə bir faktı da qabartmışdı ki, Şimali Koreyada insanlar elə bilirlər, ölkələri hansısa xarici ölkəylə müharibə aparır və bu kasıblıq, kasadçılıq o üzdəndir, ölkədə hərbi vəziyyətdir, daha nə olsun.

Yəni ölkə insanları dünyadan bu qədər təcrid olunublar. Hətta onlara futbol üzrə ŞKXDR yığmasının dünya çempionu olduğu barədə yalançı xəbər verirlər, camaat inanır və kütləvi şəkildə sevinir.

Hər gün dünyada milyonlarla insanın acından öldüyü barədə rəsmi xəbər yayırlar, camaat quru çörək tapıb yediyinə şükür edir və Şimali Koreyada doğulub yaşadıqları üçün riqqətə gəlib ağlaşırlar.

Bizim rəsmi təbliğatçılarımızın "Avropa dağılır", "Almaniya məhv olur", "Fransa çökür", "İsveçdə səfalətdir" başlıqlı materiallarla xalqı aldatmağa cəhd etmələrindən fərqli olaraq, Şimali Koreyada bu kələk baş tutur.

Ona görə ki, bu ölkədə nə internet var, nə mətbuat var, nə peyk anteni var. Bildiyimiz həbsxana. Vəssalam.

Bizdə isə hər gün yüzlərlə adam xaricə gedib-gəlir, minlərlə adam xaricdə yaşayan qohum-əqrəbası ilə görüntülü danışır, yüz minlərlə adam xarici medianı izləyir, dünyada baş verənlərdən xəbər tutur. Bu baxımdan AzTV-nin özünü ŞKXDR TV kimi aparması gülüş doğurur.

Əslində Şimali Koreya xalqının xarici düşməni yoxdur. Onlar ən çox Cənubi Koreyadan qorxurlar, bu ölkənin vətəndaşları isə onlarla eyni soydandır. Sadəcə, vaxtilə bölünüb ABŞ və SSRİ-nin təsir dairəsinə düşüblər. ŞKXDR rəhbərləri ailə hakimiyyətinin dövranının uzun olması üçün Stalin modelini seçiblər və hələ də o rejimi qoruyub saxlayırlar. Cənubi Koreyanın iqtisadi uğurları isə ötən əsrin möcüzələri sırasındadır.

İndi düzəltdikləri hidogen bombası da ŞKXDR-ə lazım olmayacaq. Heç kəsin bu səfalət, rəzalət içində batıb gedən ölkəyə hücum etmək niyyəti yoxdur. Yox, özü hansısa ölkəyə hücum etmək istəsə, onu bir zərbəylə yaman günə qoyacaqlar.

Bu ölkəyə baxdıqda pessimist olmamaq mümkün deyil. Çünki hazırda dünyada Şimali Koreya kimi qapalı ölkə olmaq, vətəndaşların hamısını dustaq etmək istəyən onlarla despot rejimi var.

# ABŞ-da vəkil və həkimlər milyonlar qazanır, bizdə isə...

**Bir neçə ay əvvəl ABŞ-da işləməyə getmiş iqtisadçı ekspert Amerikada əmək haqqını Azərbaycanla müqayisə edib. "Ştatlar üzrə müxtəlif əmək haqları var. Orda orta aylıq əmək haqqı yoxdur, daha çox 1 saatlıq minimum əmək haqqı göstəricisindən istifadə olunur. 1 saatlıq minimum əmək haqqı göstəricisi isə ən aşağı ştatda təxminən 8 dollar, ən bahalı ştatda isə 15 dollara yaxındır.**

Yəni 1 saata ən azı o qədər qazanmaq mümkündür. Dövlət universitetlərində çalışanlar ayda 10 min dollar, özəl universitetdə çalışanlar ayda 15-20 min dollar əmək haqqı alırlar. ABŞ-da üç qrup kifayət qədər yüksək gəlir əldə edir: həkimlər, hüquqşünaslar, şou-biznes və idman adamları. Bir nəfərin illik gəliri 500 min-1 milyon arasında dəyişir. Ancaq ABŞ-da qazanclar yalnız əmək haqqından formalaşmır. Məsələn, mən işlədiyim universitetdə professor-müəllim heyətinin çox böyük əksəriyyəti müxtəlif şirkətlərin səhmlərinə malikdir, onlar səhmlərdən, dövlətin istiqraz vərəqlərindən qazanc əldə edirlər. Yəni onlar öz gəlirlərini həm də səhm bazarında yerləşdirirlər. Çünki orda depozit faizləri çox aşağıdır, ona görə də səhm bazarından daha çox qazanmaq imkanları var. Odur ki, çalışırlar, gəlirlərin bir hissəsini ora investisiya etsinlər".

Şou-biznes və idman sahəsində tanınan şəxslərin Azərbaycanda da maddi təminatı yüksəkdir. Maraqlıdır, ABŞ-da ildə 500 min-1 milyon dollar qazanc əldə edən həkimlərin və hüquqşünasların Azərbaycanda vəziyyəti necədir? Söhbətləşdiyimiz ixtisas sahibləri vəziyyətdən razı deyillər.

**Tibb elmləri doktoru Adil Qeybulla bildirir ki, ölkədə həkimlərin məvacibi çox aşağıdır:** "Dövlət xəstəxanalarında maaş çox aşağıdır. Özəl klinikalarda heç olmasa, əlavə qazanc imkanları var. Həkimlərin yüksək məvacib alması üçün icbari tibbi sığortanın tətbiq edilməsi lazımdır. Ölkə iqtisadiyyatından sığorta fondlarına ayırmalar artırılarsa, həkimlərin maddi vəziyyəti düzələ bilər. ABŞ səviyyəsinə çatmasa da, azından, durum xeyli dəyişər".



Adil Qeybulla: "Dövlət xəstəxanalarında maaş çox aşağıdır"



Aslan İsmayılov: "Həqiqəti bilmək istəyirsinizsə, həyatı boyu ehtiyac içində yaşamışam"

**Özəl klinikada çalışan həkim Hüseyn Mehdiyev isə qeyd edir ki, həkimlərimizin sovet dövründən maaşları həmişə aşağı olub:** "Səbəbini bilmirəm. Həkimlərin maaşları müəllimlərdən də aşağı olub. Söhbət qalxanda deyirdilər ki, həkimlərin kənardan gəliri var. Həmin dövrdən tendensiya davam edir. Heç vaxt həkimlərin maaşları kifayət qədər olmayıb. İndi özəl klinikalar var, həkimlərin az bir qismi dolanışığını təmin edə bilir. Burada həm maaş yazılır. Üstəgəl, həkimin etdiyi əməliyyata görə əlavə bonus verir klinika. Bunun hesabına bir qədər maaş artıq olur. Amma sırf dövlət xəstəxanalarını götürsək, həkimlər 180-200 manat maaş alırlar. Təcili yardımda çalışanlar bir qədər çox, 500 manata yaxın maaş alırlar. Ölkədə həkimin qazancı kommunal xərcləri çox zaman ödəməyə yetmir. Bir həkim aldığı maaşı ancaq kommunal xərclərə ödəməlidir? Bəs nə yeməlidir? O, artıq başqa söhbətin mövzusudur. Amma rüşvətə qarşı mübarizə zamanı həbs edilənlər müəllim və həkimlər olur. Bəzən həkimlərin rüşvət almasını böyük sensasiya kimi bildirirlər. Həkimin aldığı maaşı verəsən nazirin birinə, görək necə dolana bilər. Ümumiyyətlə, dolana bilərmi? Devalvasiyadan sonra isə həkimlərin o maaşla yaşamaq şansı yoxdur. Büdcədən maliyyələşən həkimlər sanki ölümə sürgün olunmuş insanlardır. İldə maaşı 5-3 manat artırmaqla problem həll olunmur".

**Hüquqşünas Aslan İsmayılov isə qeyd edir ki, Azərbaycanda hüquqşünasların qazancı dolanmaq üçün yetərli sayıla bilməz:** "Heç vaxt özümü kasıb kimi aparmamışam. Amma həqiqəti bilmək istəyirsinizsə, həyatı boyu ehtiyac içində yaşamışam. Həqiqətdə belədir ki, dünyada normal ölkələrdə ən çox qazananlar həkimlər və vəkillər olur. Amerikada, Avropada küçədə bahalı maşın görəndə birinci insanların ağlına gələn o olur ki, hansı vəkilin maşınıdır? Amerikada heç kimin ağlıma gəlməz ki, həmin bahalı maşın hansısa qubernatorun, konqresmenin maşını ola bilər. Amma Azərbaycanda əksinə, vəkil acından ölür. Rüşvət almağı bacaran hakim, prokurur, icra başçısı milyonların sahibi olular. 1996-cı ildən daim xaricə gedib-gəlmişəm. Bugünkü maddi təminatım xaricdən əldə etdiyim gəlirlər hesabına olub. Azərbaycanın hesabına qalsa, mən də başqaları kimi acından ölərdim. Bu gün yaxşı yaşayan vəkil dəllallıq edəndir. Hansı ki, rüşvət alıb-verməyi bacarır. Normal vəkillər isə əksər hallarda dolana bilmir, ailəsini təmin edə bilmir".

❑ Röya RƏFİYEVA

# ADR-də sədrin gəlişi təşkilatı dirçəldəcəkmi...

## Ellada Məmmədli: "Qubad İbadoğlu Bakıya gələn kimi hərəkatın təşkilat komitələrinin sədrləri ilə görüşdü"

**Bir müddət əvvəl ADR Hərəkatı yaradan iqtisadçı ekspert Qubad İbadoğlu qısa müddətə Azərbaycana gəlib. Aylardır təşkilatlanma mərhələsini keçən ADR-də isə susqunluqdur. Hərəkat sədrinin xaricə getməsindən sonra təşkilatda proseslər səngiyib. Q.İbadoğlunun gəlişi rəhbərlik etdiyi hərəkatda canlanmaya səbəb olacaqmı?**

Azərbaycan Demokratiya və Rifah Hərəkatının sədr müavini Ellada Məmmədli musavat.com-a açıqlamasında bildirib ki, ADR Hərəkatı təşkilatlanma dövrünü yaşayır: "Təbii ki, ölkədəki iqtisadi-siyasi durum ADR-in təşkilanmasına da təsir edir. Bu ay ADR Hərəkatı Məclisinin növbəti sessiyası olacaq. ADR-in təşkilat komitələri ölkə ərazisinin 50 faizdən yuxarı hissəsini təşkil edir. Qubad İbadoğlu gələn kimi ADR Hərəkatı Bakı təşkilat komitələrinin sədrləri ilə görüşdü. Görüşdə Qubad bəy xarisdəki fəaliyyəti ilə bağlı geniş məlumat verdi. Eyni zamanda ADR Hərəkatı Təşkilat Komitəsi sədrləri gördükləri və görəcəkləri işlər haqqında sədrə məlumat veriblər. Sədrlər qarşıda duran vəzifələri və keçirəcəkləri konfranslar haqqında da danışıblar. Ölkədə baş vermiş iqtisadi böhrandan çıxış yolları haqqında Qubad bəy çıxış edib və həmin çıxış ətrafında müzakirələr aparılıb. Bölgələrdə olan sədrlərlə də görüş nəzərdə tutulub".



**E.Məmmədli qeyd edib ki, ADR Hərəkatı ölkədə yaranmış böhranla əlaqədar dəyirmi masa keçirməyi də planlaşdırır:** "Yaxın günlərdə bu haqda elan verəcəyik". **Onun sözlərinə görə, Q.İbadoğlu qış tətilinə vətənə gəlib və yaxın günlərdə yenidən ABŞ-a dönəcək:** "Onun iştirak etdiyi layihə martda bitir. Martda tamamilə Bakıya dönəcək".

❑ RÖYA

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2016



# Romantizmin öldüyü vaxtlar

Zamin HACI
zaminhaci@gmail.com

**“-Yoldaşlar!-deyə o, zil səsi ilə qışqırmağa başladı.- Ümid edirəm ki, donuzların yeni qərarını onların eqoizmə qapılmaları, yaxud özlərini başqalarından üstün hesab etmələri ilə əlaqələndirməyəcəksiniz. Əslində çoxumuzun süddən və almadan xoşu gəlmir. Şəxsən mən özüm onlara baxa bilmirəm. Alma və süddən istifadə etməkdən yeganə məqsəd sağlamlığımızı qorumaqla bağlıdır. Bu qidaların tərkibində (bunu artıq elm sübuta yetirib, yoldaşlar!) donuzların özlərini həmişə yaxşı hiss etmələri üçün zəruri olan maddələr vardır. Biz donuzlar əqli fəaliyyətlə məşğuluq. Fermadakı bütün idarəçilik və təşkilati işlərin məsuliyyətini daşıyırıq. Gecə-gündüz sizin rifahınızın keşiyində dayanırıq. Yalnız SİZİN rifahınız üçün süd içir, alma yeyirik”.**

***(Corc Oruell, “Heyvanıstan”)***

Mən qoroskopa, bürcə-filana inanan adam deyiləm. Bunlar hamısı gopdan başqa bir şey deyil. Ancaq dünən səhər musavat.com saytında qoroskop xəbərinin başlığını görəndə xeyli xoşbəxt oldum: “Romantik tanışlıqlar üçün münasib vaxt deyil”. Əla idi. Hətta öz-özümə güldüm də.

Ancaq bunun üçün öncəgörməyə, bürcə-zada ehtiyac yox idi. Elə həmin xəbərin aşağısında və yuxarısında dərc edilən başqa xəbərlərin başlıqlarına baxmaq yetərli idi ki, romantik tanışlıqlar üçün münasib vaxt olmadığını anlayasan. İstərdim siz də o başlıqlarla tanış olub romantik tanışlıqlar xülyasından əl çəkəsiniz: “Əfqanıstanda ABŞ əsgərlərinə hücum edilib”, “Türkiyədə avtobus aşıb, yaralılar var”, “İran və Oman XİN rəhbərləri bölgədəki vəziyyəti müzakirə edəcək”, “Baltik dənizində gərginlik artır” və sairə. Bir dənə də xoş xəbər yox idi dünyadan.

Yenə bizə min şükür. “Gallup” mərkəzi dünyada sorğu aparıb, Azərbaycan xoşbəxt ölkələr arasında 4-cü yerdə imiş. Xalqımızın 81 faizi özünü xoşbəxt, dərd-qəmsiz sayırmış. Hər halda, soruşanlara belə deyiblər.

Optimist millətdir. Qul bazarına ayfonla gedən, uşağını ac saxlayıb “Gallenvaqen” alan toplum əlbəttə xoşbəxt olacaqdır. Həm də xoşbəxtliyin dünya təsnifatı ilə azərbaycanlı təsnifatı arasında böyük fərqlər var. Misal üçün, Avropanın inkişaf eləmiş dövlətlərində insanlar xoşbəxtlik deyəndə həm insan haqlarının qorunduğu, elementar məişət şəraitinin gözləndiyi halı nəzərdə tuturlar, həm də bunu bütün dünya üçün istəyirlər. Bir alman, fransız, isveçrəli televizorda ac, evi dağılan suriyalını görəndə bədbəxt olur. Bizdə isə fərqlidir. Biz acqarına, susuz, qazsız, işıqsız da xoşbəxt ola bilərik. Dünya dağılsa, vecimizə olmaz. Çünki bizim müstəqil dövlətçiliyimiz, dahi rəhbərlərimiz, dünyaya örnək deputatxanamız və saïrə dəyərlərimiz var. Üçrəngli bayrağımız o cümlədən almanın, fransızın üşrəngli bayrağından daha yekədir, “daha üçrənglidir”, Oruell-in qəhrəmanı Napoleon demişkən.

Yaxud bir azərbaycanlı qadın toyda boğazından asdığı, tərkibində qızıldan çox mis olan saxta boyunbağını qohum arvadlara nümayiş etdirib onları paxıllıqdan öləmyə vadar etdiyi üçün azı bir qərinəlik xoşbəxtlik tapar. Bunlar hamısı uzunmüddətli, elmi müşahidələr əsasında yaranmış qənaətlərdir. Bunu Gallup-zad anlamaz. Yeri gəlmişkən, o sorğuda birinci yeri Kolumbiyanın tutması da bizim geridə qalmağımızı göstərmir. Çünki kolumbiyalılar narkotikdən hallanıb xoşbəxt olublarsa, azərbaycanlıların xoşbəxtliyi üçün belə stimullaşdırıcı vasitəyə ehtiyac yoxdur. Şairanə yazsam, biz ilahi eşqdən sərməstik. Bu eşqin ünvanı isə YAP-ın uğurlu xarici və daxili siyasətidir!

Bax, devalvasiya olub, manat can verir, iqtisadiyyat it günündədir, başqa millətlər bu halda nə edər? Antiböhran hakimiyyəti formalaşdırmağı düşünər, etiraz aksiyaları keçirər, hökuməti divara dirəyər. Bəs biz nə edirik? Biz bıçaq götürüb bir-birimizə dirəyirik. Son vaxtlar soyğunçuluq, ev oğurluğu halları artıb. Qızıl dükanının yiyəsini öldürdülər, evindən nə qədər pul-zad apardılar. Bizim çıxış yolumuz bu imiş. Çünki biz tarixən ayrı üsul bilmərik. Bizdə at oğrularına həmişə böyük hörmət qoyulub. Kitab dükanlarında ən çox satılan əsərlər “vor-zakonlar”, oğrular aləmi, nə bilim, türmə eşqi-zad haqqındadır.

---

**ABŞ Konqresinə təqdim olunan “Azərbaycanda demokratiya Aktı” adlı sanksiyaları nəzərdə tutan qanun layihəsinə ölkəmizin müxalifət düşərgəsində birmənalı münasibət yoxdur. Bəzi müxalifət təmsilçiləri bəyan edir ki, 14 maddədən ibarət həmin qanun layihəsinin 20 faizi Azərbaycan hakimiyyətinin təmsilçilərinə sanksiyaları nəzərdə tutsa da, 80 faizi Azərbaycan xalqına qarşıdır. Məsələn, bu bəyanatla Əhrar Partiyasının sədri Vaqif Hacıbəyli çıxış edib. O qeyd edib ki, hər kəs qanun layihəsini diqqətlə oxusun. O zaman layihənin 80 faizinin Azərbaycan xalqına qarşı olduğunu görə bilər.**

# Partiya sədrləri Azərbaycana qarşı layihəni oxuyublarmı...

## Tanınmış müxalif partiya lideri Smitlə dost çıxdı


Arif Hacılı


Sərdar Cəlaloğlu


İqbal Ağazadə


Fəzail Ağamalı

**Bəs partiya sədrləri sözügedən qanun layihəsini oxuyublarmı və təəssüratları nədir?**

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, layihə ilə tanışdır və bu məsələ çox ciddi müzakirə olunmalıdır: “Bu məsələ ətrafında müxtəlif mövqelərin dinlənilməsi lazımdır. Belə bir vəziyyətin ortaya çıxmasına səbəb olan faktorlar ciddi şəkildə öyrənilməlidir. Azərbaycan ətrafındakı o cür tendensiyaların ölkəmizin milli təhlükəsizliyi, dövlət maraqları və mənafeləri üçün təhdidləri öyrənilməlidir və bu məsələ ilə bağlı bir ümummilli mövqe hazırlanmalıdır. Mühüm olanı Azərbaycan barəsində bu tipli təhlükələri yaradan səbəbləri aradan qaldırmaq lazımdır. Demokratikləşmə istiqamətində ciddi islahatların aparılması belə sərt layihələrin qəbul edilməsinin qarşısını alan ciddi addım olar. Bu, həm də Azərbaycanın milli təhlükəsizlik məsələsidir. Biz belə bir çağrı ilə qarşı-qarşıyıq və buna adekvat cavablar tapılmalıdır. Azərbaycan dövlətinin taleyi üçün əsas məsuliyyət daşıyan şəxs olaraq prezident İlham Əliyev bu məsələ ətrafında Azərbaycanın siyasi müxalifətinin də mövqe rəylərini dinləməlidir, ortaya ümummilli mövqe qoyulmalıdır. Dövlət başçısı səviyyəsində böyük bir toplantının təşkil olunmasına ehtiyac var. İlk növbədə siyasi məhbuslar kimi tanınan şəxsləri azad eləmək lazımdır”.

**Müsavat Partiyasının başqanı Arif Hacılı sözügedən qanun layihəsinin mətni ilə tanış olduğunu bildirdi və qeyd etdi ki, bu qanun layihəsinin təkcə konqresmen Smitə məxsus olduğunu iddia etmək düzgün deyil. Çünki bu layihə artıq nüfuzlu Helsinki Komitəsində təsdiq olunub və Konqresin müzakirəsinə çıxarılacaqsa, səs çoxluğu ilə qəbul olunma ehtimalı yüksəkdir:** “Belə bir vəziyyətin yaranmasının günahı hakimiyyətdədir. Beynəlxalq qurumlar, o cümlədən ABŞ-ın müxtəlif rəsmi dairələri tərəfindən irəli sürülən təklifləri hakimiyyət qəbul etmədi. Bunun nəticəsində Azərbaycan faktiki olaraq beynəlxalq aləmdən təcrid olunmuş vəziyyətə düşüb. Təbii ki, ABŞ-ın apardığı siyasət məhz Azərbaycan hakimiyyətinə təzyiq məqsədilə həyata keçirilir. Ancaq istər-istəməz əgər hakimiyyətin apardığı yanlış siyasət ucbatından Azərbaycan beynəlxalq birlikdən təcrid olunmuş vəziyyətə düşürsə, bu həm də Azərbaycan dövlətinin, xalqının ziyanınadır. Ona görə də biz ilk növbədə hakimiyyətdən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyi, qanunlara əməl etməyi tələb eləməliyik. Bu baxımdan istər ABŞ Konqresində müzakirəyə çıxarılacaq həmin qanun layihəsi, eyni Avropa İttifaqı, Avropa dövlətləri tərəfindən hakimiyyətə qarşı aparılan indiki təzyiq siyasəti məhz hakimiyyətin apardığı yanlış siyasətin nəticəsidir”.

**ADP sədri Sərdar Cəlaloğlu layihə ilə hərtərəfli tanışlığının olmadığını, lakin layihəni hazırlayan konqresmen Smitlə şəxsən tanış olduğunu bildirdi:** “Smitlə ABŞ-da üç dəfə görüşmüşəm, onu çox yaxşı tanıyıram, şəxsi söhbətlərimiz olub. O adamın subyektivizmə yol verməsi, ədalətsiz olması, ermənilərə işləməsi barədə deyilənlərin hamısı cəfəngiyatdır. Kristofer Smit Avropa ölkələri ilə də bağlı bu qəbildən bir çox sənədlər hazırlayıb. Smitin Azərbaycanla bağlı hazırladığı sənəd Azərbaycan gerçəkliyi ilə bağlıdır. Bu gün ölkədə mövcud olan iqtisadi, sosial, siyasi böhran bunu sübut edir. Ölkədəki vəziyyət göstərir ki, Smitin göstərdiyi proseslər Azərbaycanda var. O layihə də məhz bu vəziyyətin düzəldilməsinə nail olmaq üçündür. Smitin mövqeyini düşmənçilik kimi qarşılamaq yanlışdır. Şübhəsiz ki, qanun layihələri qəbul edilərkən ayrı-ayrı fərdlərə yox, bütövlükdə sistemə qarşı qəbul edilir. Həmin idarəetmə sistemi də ölkəni idarə etdiyi üçün ona qarşı tətbiq olunan sanksiyalar dolayısı yolla da olsa ölkəyə və xalqa da ziyan vurur. Hansısa məmurların xaricdəki bank hesablarındakı pullara həbs qoyulsa belə, dolayısı ilə bu da ölkənin itkisi sayılır. Çünki o pullar Azərbaycandan oğurlanmış pullardır. Yaxşı olar ki, oğurlanmış pullara həbs qoyulmasın, həmin pullar Azərbaycan dövlətinin xarici borclarını ödəməyə yönləndirilsin”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə qanun layihəsi ilə tanış olduğunu dedi və bildirdi ki, xalqı hakimiyyət idarə elədiyi üçün hakimiyyətə qarşı olan sanksiyalardan dövlət və xalq da ciddi ziyan çəkir:** “Çünki tətbiq olunan sanksiyalar nəticə etibarilə gətirib ona çıxaracaq ki, Azərbaycanın xaricdə olan valyutasının qayıdışından tutmuş, münasibətlər sisteminə və psixoloji gərginliyə qədər hər şeyi özündə göstərmiş olacaq. Xaricdən gələn təhdidləri əngəlləmək üçün hökumət həmin tərəflərlə danışığa getməlidir, siyasəti yeni bir səviyyəyə daşımalıdır. O qanun layihəsi qəbul olunsa, bundan təkcə iqtidar ziyan çəkməyəcək. Bundan dövlət və xalq da ziyan çəkəcək”.

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı isə bildirdi ki, layihə ilə tanışdır və həmin layihənin Azərbaycan dövlətçiliyinə, xalqına qarşı olduğu şübhə doğurmur:** “Orada qoyulan müddəalar Azərbaycan üçün çox təhlükəli mahiyyət daşıyır. O layihə Azərbaycan xalqına qarşı təpkidir. Bunu təkcə hakimiyyətə qarşı layihə hesab edənlər yanılırlar. Erməni lobbisi, ABŞ-dakı anti-Azərbaycan qüvvələri bu layihəni qəbul etdirib özləri üçün istifadə eləyə bilərlər. Azərbaycana qarşı bu cür mövqe Avropa ölkələrindən də sərgilənə bilər. Şadam ki, Vaqif Hacıbəyli obyektiv olaraq bəyan edib ki, həmin layihə əslində Azərbaycan xalqına qarşıdır. Vaqif Hacıbəyli müxalifətdə olmağına baxmayaraq, bir hüquqşünas və vətəndaş kimi ortaya obyektiv mövqe qoyub. Müxalifətdə və iqtidarda olmağından asılı olmayaraq, hər bir normal, xalqını düşünən siyasətçi ermənipərəst qüvvələrin ABŞ-da Azərbaycan dövlətinə və xalqına qarşı məkrli iş həyata keçirməyə çalışdığını pisləməlidir. Bilmək lazımdır ki, o qanun layihəsi təkcə iqtidardakı ayrı-ayrı məmurlara, onların ailə üzvlərinə ABŞ-a buraxılmaq yasağı ilə məhdudlaşmır. Layihənin böyük hissəsinin mahiyyətinə vardıqda onun Azərbaycan xalqına və dövlətinə qarşı olduğu görünür. Bu, Azərbaycan xalqının fəlakətinə hesablanan bir layihədir. Azərbaycan xalqı, iqtidarlı-müxalifətli hər kəs birləşib bu son dərəcə təhlükəli layihənin qəbul edilməsinə imkan verməməliyik. Bu layihənin ortaya çıxmasından Azərbaycanın daxilində iqtidara qarşı istifadə etmək istəyən qüvvələr var. Bunlar antimilli qüvvələrdir. Bu qüvvələr ABŞ-da və Avropadakı anti-Azərbaycan qüvvələrlə əlbirdirlər”.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2016

**Azərbaycan məmurlarının vaxtaşırı xarici ölkələrə baş çəkmələri sirr deyil. Orta və iri ranqlı məmur heyəti ildə bir neçə dəfə xarici ölkələrə bahalı turist səfərləri edirlər. Bu səfərlər zamanı onların əcaib paralar xərcləməsi haqda indiyədək yerli və beynəlxalq media çox yazıb.**

# İcra başçıları ölkəni kütləvi şəkildə tərk edib - siyahı

## Prezidentin yerlərdəki nümayəndələri bayram günləri bahalı kurortlarda dincəliblər; indiki həssas dönəmdə rəsmi məzuniyyəti olmayan və PA-dan icazə almayan məmurların siyahısı tutulur; belələrinə ağır cəzaların veriləcəyi gözlənilir

İllərdir ki, Azərbaycana başgicəlləndirən neft pullarının axını məmurlarımızın xaricdə mal-mülk almalarına, orada özlərinə Azərbaycanda əldə etdikləri vəsaitlər hesabına biznes qurmalarına yol açıb. Məmurlar ölkədə böyük pullar qazanıblar, qüdrətli olublar. Lakin ölkəni güclü, qüdrətli etməyə həvəs göstərməyiblər. Hətta ölkədə istirahət etməyi belə özlərinə ar biliblər.

Artıq neft erası arxada qalıb. Fikirləşmək olar ki, daha məmurlarımız bu cür dəbdəbəli həyatlarına bir az redaktələr edəcəklər. Amma nə fayda... Özləri ni 5 il əvvəl olduğu kimi aparırlar. Sanki 2010-cu ildir və ölkəyə dollar axını davam edir...

2015-ci ilin dekabr ayının 21-də baş verən devalvasiya Azərbaycanda ictimai mühitdə gərginlik yaradıb. Belə bir gərgin durumdan istifadə edib ölkəmizi qarışdırmaq istəyən xeyli qüvvələr mövcuddur. Bu qüvvələr xalqın hökumətə yaranmış narazılığını özlərinin iyrənc maraqları naminə qullana, xalqla iqtidarı üz-üzə qoya bilərlər. Bu təhlükə haqda artıq rəsmi şəxslər də müəyyən narahatlıqlar bildirirlər.

İndi təsəvvür edin, bu cür həssas bir məqamda əksər icra başçısı eyş-işrətindən qalmayıb. İqtidarın, xalqın ciddi çətinliklə üzləşdiyi dönəmdə Avropanın və Asiyanın bahalı kurortlarında dincəlməyə gediblər.

Bizə çatan məlumatlara görə, dekabrın sonlarından ölkəni tərk edən məmurların əksəri hələ də xaricdə istirahət edir. Aralarında icra başçılarının da olduğu bu heyət ölkədə vəziyyətin pisləşməsini, gərginliyin artmasına veclərinə almır.



**Məmurların xarici ölkələrdəki dəbdəbəli kurortlarda son istirahətləri daha çox diqqət cəlb elədi. Sanki ölkədəki iqtisadi böhran məmur təbəqəsinə aid deyil. Xatırladaq ki, parlamentin Dövlət quruculuğu və hüquq siyasəti komitəsinin sədri Əli Hüseynli ölkədə baş verən iqtisadi proseslərlə əlaqədar məmurlara çağırış etmişdi. Əli Hüseynli maraqlı bir təklif səsləndirərək, dövlət məmurlarını ölkədə istirahət etməyə üstünlük verməyə çağırmışdı:** "İndi elə məqamdır ki, rəsmi şəxslər nə qədər çox Azərbaycanda olsalar, bir o qədər yaxşıdır. İstirahəti də Azərbaycanda etmək lazımdır. Əgər rəsmi, vəzifəli şəxslərə vizalar verilməsə, ölkəmiz daha çox qazanar. Yəni demək istəyirəm, bu, hamımız üçün yaxşı olar. Azərbaycanda turizmi inkişaf etdirmək lazımdır. Rəsmi şəxslər istirahətlərini ölkəmizin gözəl guşələrinin birində etməlidir. Turizm sahəsi harada yaxşı deyilsə, düzəltsinlər".

O da məlumdur ki, məmurlar, xüsusən icra başçıları istirahət yeri kimi tez-tez Karlovı Varı kurortlarına gedirlər. Çexiyanın gecə barları, kazinoları, azartlı oyun mərkəzləri zəngin məmurlarımızı maqnittək özünə çəkir.

Bizə Yeni il tətilini Karlovı Varıda və başqa dəbdəbəli kurortlarda keçirən bir neçə icra başçısının adı məlum olub. Bu sırada İmişlinin icra başçısı Vilyam Hacıyevin, Salyanın icra başçısı Tahir Kərimovun, Gəncənin icra başçısı Elmar Vəliyevin, Binəqədinin icra başçısı Xaləddin İsgəndərovun, Masallının icra başçısı Rafil Hüseynovun, Şəmkirin icra başçısı Alimpaşa Məmmədovun, Xətainin icra başçısı Razim Məmmədovun, Kürdəmirin icra başçısı Ceyhun Cəfərovun adları öndə gəlir.

Bir neçə başqa icra başçısının adı bizə məlumdur, sadəcə, dəqiqləşdirmələrimiz başa çatmadığı üçün onları siyahıya salmadıq. Lakin növbəti saylarda ölkəni özbaşına tərk etmiş məmurların da haqqında geniş yazacağıq.

Ölkə iqtisadi fəlakətlə üz-üzə olduğu bir vaxtda, ölkə prezidentinin belə Yeni il tətilini ölkədə keçirdiyinə rəğmən icra başçıları tətili xalqla yox, xaricdə keçirirlər.

Bu məmurlar prezidentin yerlərdəki nümayəndələridir. Ölkə başçısı ayrı-ayrı rayonları bunlara etibar edir. Məmurlar da, maşallah, etimadı bu cür "doğruldurlar".

Bizə çatan məlumatda o da bildirilir ki, rəsmi məzuniyyəti olmadığı halda ölkəni və postunu tərk etmiş icra başçılarının siyahısı hazırlanır, onlara bu özbaşınalıqlarına görə ağır cəzaların veriləcəyi gözlənilir.

❑ **E.HÜSEYNOV**

# Azərbaycanda dollar qıtlığı yarandı

## Mərkəzi Bank sənəd üzərində banklara dollar satdığını göstərir, amma yanvarın 6-da bazara 1 sent belə valyuta daxil olmayıb



**Yanvarın 6-da Mərkəzi Bank bazara 1 sent belə dollar buraxmayıb. Bu haqda bank sektorundan musavat.com-a daxil olan məlumatda bildirilir. Yanvarın 6-da Bakıda və bölgələrdə ABŞ valyutası almaq istəyən vətəndaşlar əliboş geri dönüblər. Bakıdakı banklar min dollardan artıq satış etməyiblər.**

Bu məlumatı dəqiqləşdirmək üçün paytaxt Bakıda reyd keçirdik. Əksər valyutadəyişmə məntəqələri və banklar dollar satışından imtina edirdilər. Səbəb kimi isə Mərkəzi Bankın 6 yanvar tarixində bazara dollar çıxarmadığı göstərilirdi. Bildirildiyinə görə, MB 6 yanvar tarixində bazara dollar satmayıb. Daha doğrusu, satışı kağız üzərində aparıb, faktiki isə bazar dollarsız qalıb.

Məlumatlı mənbənin musavat.com-a bildirdiyinə görə, əsas funksiyası bazarda qiyməti (məzənnəni) tənzimləmək olan Mərkəzi Bankın bu addımı başa düşülən deyil. Üstəlik, qurum bu barədə banklara heç bir izahat da vermir. Əhali dolların yenidən bahalaşa biləcəyindən narahatdır. Neçə gündür deyilir ki, 1 dollar 2 manatı keçəcək. Bəlkə də MB bazara ona görə dollar satmır ki, yenidən devalvasiya olacaq.

Hazırda Mərkəzi Bankın 5 milyardlıq ehtiyatının realda olub-olmadığı da şübhə doğurur. Bəs çıxış yolu nədir? Özəl bank rəhbərləri deyir ki, onlar üçün heç bir çıxış yolu yoxdu: "Məlumatsızıq. Bizə heç bir informasiya verilmir deyə yaranmış durum haqda analiz verə bilmirik".

Artıq dünya bazarında dollar manata nisbətdə bir qədər də bahalaşıb. "Blomberq" agentliyinin son məlumatına görə, yanvarın 7-da 1 ABŞ dolları 1.6351 həddinə qədər yüksələ bilər.

Bank sektorunda, lombardlarda müşahidə etdiklərimiz ölkənin növbəti devalvasiyanın astanasında olması haqda fikirlərə inamı artırır. İqtisadi böhran hər gün daha kəskin şəkildə ölkəboyu hiss edilməkdədir. Dolların kursunun manata nisbətən durmadan artması bank və iri şirkətlərin aktivlərini sürətlə dollara çevirməsini şərtləndirib. Bu gedişlə dolların sürətlə güclənməsi qaçılmaz görünür. Mağazaların sürətlə boşalması da bir başqa mövzudur. Bu boşalma heç də əhalinin alıcılıq qabiliyyətinin artması ilə bağlı deyil, əksinə, dövriyyənin düşməsi, iş adamlarının qeyri-müəyyən durumda mağazalara yeni mallar gətirməyə tərəddüdü ilə bağlıdır. İş adamlarının kredit resurslarına tələbi artıb, lakin əksər bankların krediti dollarla verməsi iş adamlarını kredit resurslarından istifadə etməkdən çəkindirir. Bu isə orta statistik iş adamlarının real fəaliyyətini iflic edib, onları böhran yaradacaq dərəcəyə qədər çatdırıb. Artıq vətəndaş mağazalarda gözü ilə gördüyü nemətləri almaqda çətinliklərlə üz-üzədir. Hələ ki ölkə böhranlı duruma yeni qədəm qoyub. Evlərdə az-çox ərzaq ehtiyatı var. 1 aydan sonra bunlar da olmasa...

❑ **E.MƏMMƏDƏLİYEV**

# Rusiya kriminalında yeni hesablaşma - "Lənkəranski" yenə hədəfdə

## Yanvarın 16-da "Ded Xasan"ın qətlinin 3 ili tamam olur; "Vaqif Bakinski" ilə Rövşən Canıyev niyə düşmən olub?



Rövşən Lənkəranski



Ded Xasan



Vaqif Bakinski

**Bir neçə gündür ki, Rusiya kriminal aləminin "xaç atası" olmuş Aslan Usoyanın ("Ded Xasan") yaxın qohumunun vəhşicəsinə döyülməsi və kriminal aləmdə yeni savaşın başlaması barədə xəbərlər yayılıb. Rusiya mətbuatı yazır ki, hadisə "Bolşoy Teatr" yaxınlığında yerləşən ticarət mərkəzlərindən birində baş verib. Buraya azərbaycanlı "qanuni oğru" Vaqif Süleymanovla ("Vaqif Bakinski") gələn "Ded Xasan"ın qohumu Roman Rasoyev("Alik Krosnodarski") təsadüfən Dağıstan klanının üzvü olan Əmirlə rastlaşıb.**

Əmir "Alik Krasnodarski"nin ona 50 milyon rubl borclu olduğunu bildirib. Dağıstanlı avtoritet dərhal ona təklif edib ki, yaxınlıqdakı bara gedib danışsınlar. Lakin söhbət alınmayıb. Rasoyevə qulaq asmaqdan yorulan Əmir əvvəlcə onu sifətindən endirdiyi zərbə ilə nokauta salıb. Daha sonra təpiklə şil-küt edib. Yaxınlıqda olan "Vaqif Bakinski" isə müdaxilə etməyib. Əmir mühafizəçiləri ilə birlikdə təcili ticarət mərkəzini tərk edib, Rasoyevi isə bir neçə sınıq xəsarəti, o cümlədən çənə sınığı diaqnozu ilə xəstəxanaya yerləşdiriblər.

Hüquq-mühafizə orqanlarındakı mənbə deyib ki, Rasoyevin döyülməsi kriminal aləmdə vəziyyəti gərginləşdirməyəcək. Çünki "Ded Xasan"ın ölümündən sonra "Alik"in mövqeləri xeyli zəifləyib.

Qeyd edək ki, bir neçə gün əvvəl Rusiya kriminal aləminin "Ded Xasan"dan sonrakı "xaç atası" olmağa iddialı "Şakro Molodoy"un (Zaxari Kalaşov) cangüdənləri güllələniblər. Baş verən hadisələr onu göstərir ki, Rusiya kriminalı yenidən iki böyük cəbhəyə-"Ded Xasan" klanına başçılıq edən "Şakro" və onlara ənənəvi müxalifət olanlara bölünür.

"Şakro Molodoy" 2014-cü il oktyabrın 29-da İspaniya həbsxanasından azadlığa buraxılıb. "Ded Xasan"ın yaxın qohumları olan yezidi kürdlər klanın əvvəlki nüfuzunu saxlamaq üçün onun ətrafında təşkilatlanıblar. Doğrudur, klan əvvəlki nüfuzunu qoruya bilməyib, üstəlik, yanvarın 16-da "Ded"in qətlinin 3 ili tamam olur ki, bu müddətdə qatillərin kimliyi hələ də məlum deyil. "Şakro" həbsdən çıxdıqdan sonra onun məzarı üstə and içib intiqamını alacağını desə də, bu baş verməyib. Belə ehtimal etmək olar ki, ildönümü ərəfəsi yenidən köhnə ədavət-"Ded"in qətlinin sifarişçiləri olduğu iddia edilənlərlə münasibətlərin gərginləşməsi başlayıb. Sifarişçilər sırasında isə nüfuzlu azərbaycanlı "qanuni oğru" Rövşən Canıyevin ("Rövşən Lənkəranski")adı da var. Sifarişçilər sırasında bu ilin əvvəllərində azadlığa buraxılacaq "vor zakon" Merab Canqveladzeni ("Merab Suxumski") və Tariel Oniani ilə ("Taro") də var. "Suxumski"nin İtaliya həbsxanasından yaxınlarda buraxılacağı deyilir. O, reket, saxta sənədlərdən istifadə, çirkli pulların yuyulması ittihamları ilə 4 il həbs cəzası alıb və cəzasının yarısını çəkib. "Taro" isə Rusiyada həbsdədir. Bu qruplaşmanın faktiki lideri isə "Rövşən Lənkəranski" hesab olunur.

"Vaqif Bakinski"yə gəlincə, o həmişə "Ded" klanına yaxın olub və "Lənkəranski" ilə münasibətləri düşmənçilik həddə pisdir. O, 2013-cü ildə həbsdən buraxıldıqdan sonra "Rövşən Lənkəranski"nin ən yaxın adamlarından biri olmuş gürcü əsilli "Cemo" ləqəbli Cemal Mikeladzenin "qanuni oğru" adından məhrum edilməsini təşkil edib.

"Vaqif Bakinski"nin həm "Cemo", həm də "Rövşən Lənkəranski" ilə münaqişəsi hələ Aslan Usoyanın sağlığında başlayıb. Məlumatlara görə, Vaqif bir neçə il əvvəlki həbsinə görə "Rövşən Lənkəranski"ni günahlandırırmış. 2010-cu ilin yazında həbsdə olan Vaqiflə "Lənkəranski" arasında bu mövzuda telefon söhbəti gərgin keçib və onlar bir-biri haqda xoşagəlməz ifadələr işlədiblər. V.Süleymanov tezliklə həbsdən buraxılıb və onlar 2010-cu ilin avqustunda münasibətlərini aydınlaşdırmaq üçün "Cemo"nun böyük qardaşı Mamukonun elit kottecində "sxodka"ya toplaşıblar. "Rövşən Lənkəranski" tərəfdən söhbətdə Mikeladze qardaşlarından başqa digər "qanuni oğru"lar da iştirak edib. "Vaqif Süleymanov isə görüşə "Ded Xasan"ı təmsil edən ən stajlı "qanuni oğru"lardan biri "Vasi Voskres"lə gəlib. "Sxodka" məhz "Cemo" söz alandan sonra davaya çevrilib. "Cemo" özündən həm yaşca, həm də cüssəcə böyük olan Vaqifi vurmaq istəyərkən *(əl qaldırmaq "oğru qanunları"nda düzgün olmayan hərəkət sayılır)* özü zərbə alıb. "Sxodka"nın sonunu gözləməyən V.Süleymanov oranı tərk edib. Bu "sxodka" "Lənkəranski" kastası və Vaqif arasında münasibətləri daha da pisləşdirib. "Vaqif Bakinski" 2011-ci ilin iyul ayının 6-da Miçurin prospekti 11 ünvanında polislər tərəfindən şübhəli şəxs qismində saxlanılıb. Onun üzəndən 4.84 qram heroin aşkarlanaraq götürülüb. 2011-ci ildə Moskvanın Nikulsk Rayon Məhkəməsinin hökmü ilə o, 3 il müddətinə azadlıqdan məhrum edilib. V.Süleymanov o zaman da həbsini "Lənkəranski"nin sifarişi kimi qiymətləndirmişdi.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2015



# Ermənistan üçün fəlakətli yekun: 2015 iqtisadi çöküşü yaxınlaşdırıb

## Xarici borclar 4 dəfə böyüyüb, ölkədən emiqrasiya sürətlənib, ixrac idxalı 3 dəfə üstələyib; əhali daha da kasıblayıb; kölgə iqtisadiyyatı və korrupsiyanın həcmi artıb; təzə il daha acınacaqlı perspektivlər vəd edir...

**2015-ci il gözlənildiyi kimi, işğalçı Ermənistan üçün qat-qat ağır göstəricilərlə yadda qalıb. Söhbət təkcə cəbhə xəttində artan canlı itkilərdən getmir, həm də ölkə və separatçı rejim daxilində iqtisadi-sosial-durumun bir az da pisləşməsindən gedir.**

Heç şübhəsiz, qonşu ölkənin sosial-iqtisadi durumuna Dağlıq Qarabağ konfliktinə görə onun Azərbaycan və Türkiyə tərəfindən izolyasiyada saxlanması və Rusiyanın forpostu olması, o sırada Kremlin girovuna çevrilməsi həlledici təsir göstərib. Gerçək budur ki, Ermənistan ötən ili daha acınacaqlı göstəricilərlə başa vurub.

**Bunu erməni təhlilçiləri də açıq şəkildə etiraf edirlər. Məsələn, irəvanlı iqtisadçı-analitik Susanna Petrosyan öz şərhinə 2015-ci il də Ermənistanın iqtisadi vəziyyətini yaxşılaşdırmağını vurğulamaqla başlayır:** “Ölkənin xarici borcları artıb, emiqrasiya sürətlənib, xarici sərmayələrin azalması, kapitalın ölkədən çıxarılması kimi tendensiyalar güclənib. Yeni ildə indiki 5 milyard 22 milyon dollarlıq xarici borcun həcmi ÜDM-in 50%-ni aşa bilər. Yeri gəlmişkən, indiki iqtidarın *("Qarabağ klanı"nın - red.)* hakimiyyətə gəldiyi 2008-ci ildə xarici borc cəmisi 1,5 milyard dollar olub. Deməli, 7 ildə o, 3,8 dəfə artıb. “Global Financial İntegrity” təşkilatının məlumatına görə, son illər Ermənistandan çıxarılan kapitalın həcmi illik üçün 983 milyon dollar təşkil edib ki, bu da korrupsiya və kölgə iqtisadiyyatının yüksək səviyyədə olduğuna dəlalət edir".

**Ekspert Ermənistan iqtisadiyyatının ağır durumda olmasının ən mühüm göstəricilərindən biri kimi ticarət dövriyyəsi və pərakəndə ticarətin həcminin azalmasını qeyd edib:** “Sonuncu dəfə bu göstərici 2009-cu ildə azalmışdı. 2009-cu ildən sonra ilk dəfə ölkə daxilində də ticarət azalıb. Yanvar-iyunda geriləmə 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,1% olub”.

“Qəliz iqtisadi situasiyanın digər bir göstəricisi Rusiyadan gələn transfertlərin həcminin azalmasıdır - hansı ki, 15 ildən çoxdur ki, Ermənistanın iqtisadi modeli üçün ən mühüm faktorlardan biridir. Transfertlər 2014-cü ilin sonlarından azalmağa başlayıb. 2015-ci ildə azalma 2014-cü illə müqayisədə 38-40% təşkil edib. Əvvəllər bu göstərici ildə təxminən 2 milyard dollar civarında olub. Bu, hakimiyyətin iri monopolist -idxalçıların dəstəyinə yönəlik siyasəti ilə yanaşı, ölkədə alıcılıq qabiliyyətinin azalmasının ən ciddi səbəbidir” - daha sonra qeyd edir Petrosyan.

**Növbəti ciddi problem kimi o, idxalın ixracı 3 dəfə üstələməsinə diqqət çəkir:** “Hökumətin situasiyanın guya sabitləşməsi haqda bəyanatlarına rəğmən, iqtisadiyyat geriləməkdə davam edib. Hökumətin stabil situasiya haqda bəyanatları ilə reallıqlar arasında əsl uçurum var. İstehlak ehtiyacının azalması problemi - hökumətin illər uzunu yol verdiyi yanlışlar və sistemli səhvlərin nəticəsidir. Bu səhvləri bir zəncirə yığmaq olar və onların arasında hakimiyyətin inhisarçılığı xırda və orta biznesin zıyanına gücləndirməsi, Rusiya transfertlərdən asılı iqtisadi modelin qurulması, ixracın inkişafı üçün effektli tədbirlərin görülməməsi, milli valyutanın kursunun süni şəkildə saxlanması xüsusi vurğulanmalıdır”.

**Erməni təhlilçi şərhini belə tamamlayır:** “Ermənistan iqtisadiyyatının inkişafında əsas maneə oliqarxik strukturların və monopoliyanın dominantlıq təşkil eləməsidir. Bunun nəticəsidir ki, biznesdə rəqabət mühiti mövcud deyil. Sabiq baş nazir Qrant Baqratyan əmindir ki, ölkənin inkişafı və miqrasiyanı önləmək üçün iqtisadi artım 2-3% yox, 7% səviyyəsində qərarlaşmalıdır.

Bütövlükdə hakimiyyətin siyasətinin əsas göstəricisi vətəndaşların sosial vəziyyətinin pisləşməsidir. Korrupsiyanın çiçəklənməsini və kölgə iqtisadiyyatının yüksək səviyyəsini təmin edən iqtisadiyyatın klan-oliqarxik modeli ölkənin inkişafına əngəl olaraq qalır. Bu - ÜDM-in əhəmiyyətli artımını təmin edəcək sərmayə axını önündə ciddi maneələrdir".

***

Erməni iqtisadçının təhlili işğalçı ölkənin daxili iqtisadi durumunu aydın təsəvvür eləmək üçün yerərli sayıla bilər. Ancaq onun bir fikri ilə razılaşmaq çətindir. Bu da odur ki, guya Ermənistanda korrupsiya, kölgə iqtisadiyyatı olmasa, o, qısa zamanda çiçəklənə, miqrasiya dayana, xarici investisiyalar ölkəyə axa bilər.

Sözsüz ki, ilğımdır. Çünki hətta o halda da xaricdən ciddi sərmayələr gəlməyəcək. Nədən ki, Azərbaycanla müharibə vəziyyətində olan, üstəlik, Qərblə kəskin münasibətlərdə olan Rusiyanın 1 nömrəli müttəfiqi Ermənistana çətin ki, xarici sərmayə axını ola. Yəni ən azından biznesin təhlükəsizliyi məsələsi...

❑ **Siyasət şöbəsi**

# Rusiya Azərbaycanlıları Konqresi ittihamlara cavab verdi

## İlqar Hacıyev: “Heç vaxt kiməsə zəng vurub deməərəm ki, “erməni soyqırımı" ilə bağlı müraciəti imzalamayın"

**Rusiyadakı azərbaycanlı diaspor nümayəndələri “erməni soyqırımı”nı inkar etməyə görə cinayət məsuliyyəti nəzərdə qanun layihəsinə etiraz etdikləri üçün ciddi təzyiqlərlə üzləşiblər. Onlara təzyiq edənlər arasında Rusiyada fəaliyyət göstərən azərbaycanlı diaspor təşkilatlarının rəhbərlərinin də olması barədə sensasion xəbərlər yayılıb.**

Bu barədə virtualaz.org saytı məlumat yayıb. Məlumatda bildirilir ki, ötən ilin dekabrında diaspor təşkilatlarının bir qrup nümayəndəsi Dövlət Dumasının spikeri Sergey Narışkinə müraciət edərək həmin qanun layihəsinin müzakirəyə çıxarılmasından narahatlıqlarını ifadə ediblər. Müraciətin altına Rusiyadakı azərbaycanlı diaspor təşkilatlarının 30 nümayəndəsi, o cümlədən Yaroslavldan Asman Hüseynov, Kostromadan Kamran Babayev, Nijniy Novqoroddan Vidadi Abbasov və digərləri imza atıblar. Yayılan xəbərdə qeyd olunur ki, müraciətə imza atanlar imzalarından imtina etmək üçün hədələniblər, biznesləri ilə şantaj olunublar. Rusiya Azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyyəti təşkilatının Kalininqrad vilayəti üzrə nümayəndəsi Nadir Ağayev həmin müraciəti imzalamaqdan imtina edib. Müraciətə imza atmayanlar arasında Moskvadakı diaspor təşkilatının rəhbəri Ağadadaş Kərimov və Rostovdakı diaspor lideri Vaqif Mustafayevin də olduğu deyilir. Xəbərdə Tatarıstandakı diaspor lideri Sübhan Əhədzadənin müraciətə imza atmaqdan imtina etdiyi, hətta Leninoqorsk şəhərindəki “Birlik” diaspor təşkilatının rəhbəri Ramiz Məmmədova müraciətə imza atdığı üçün irad tutduğu, ondan Tatarıstan Xalqlar Assambleyasına da şikayət etdiyi bildirilir.

Sayt xəbər verir ki, Rusiyadakı diaspor təşkilatlarından daxil olan məlumata əsasən, Rusiya Azərbaycanlıları Konqresinin icraçı direktoru İlqar Hacıyev və “AzərRos”un keçmiş rəhbəri Söyün Sadıqov şəxsən regionlardakı diaspor rəhbərlərinə zəng edərək, onlardan tələb ediblər ki, Narışkinə müraciəti imzalamasınlar. Sayt iddia edir ki, S.Sadıqov, İ.Hacıyev kimiləri özlərinin biznesini zərbə altında qoymamaq üçün erməni qanununun qəbuluna etiraz edənlərə qarşı təzyiqlərə qoşulublar.





**Yayılan xəbərlərdə adı keçən Rusiya Azərbaycanlıları Konqresinin icraçı direktoru İlqar Hacıyevin özü ilə əlaqə saxlamağa nail olduq. O, yayılan xəbərləri təkzib etdi:** “Bu doğru xəbər deyil. Bildiyimiz kimi, hazırlanan qanun layihəsi soyqırımı tanımayanların cinayət məsuliyyətinə cəlb olunması ilə bağlıdır. Rusiya Azərbaycanlıları Konqresi buna biganə qala bilməz. Biz qəti qərarla sənəd hazırlamışıq. Ötən ilin sonunda iclasımız olmalı idi. Orada sənəd təsdiq edilməli idi. Rusiyada çoxlu sayda diaspor təşkilatları var. ”AzerRos" başda olmaqla, bir neçə təşkilat artıq müraciətimizi dəstəkləyib. Müsbət reaksiyalar var. İş adamlarının guya bizneslərindən qorxub belə addım atmaları barədə xəbərlər yayılıb. Bu, öz təsdiqini tapmayıb. Burada yaşayan azərbaycanlılar olaraq, vətənimizə bağlıyıq, ölkəmizlə nəfəs alırıq. Bütün gücümüzü ortaya qoymuşuq ki, buradakı azərbaycanlılar həmrəy olsunlar, onların haqları qorunsun, heç zaman pozulmasın. Milli dəyərlərimizi daim qoruyuruq. Orxan Zeynalovla bağlı zaman-zaman çoxsaylı müraciətlərimiz olub, cavablar almışıq. Bildirmişdik ki, milli dəyərlərimizə heç zaman toxunmaq olmaz. Burada yaşayan hər bir azərbaycanlı dəyərimizdir. “Erməni soyqırımı” ilə bağlı qanun layihəsinə etiraz kimi hüquqşünas olaraq, çalışıram ki, sənədlərimiz qanuni olsun. Təşkilatımızın tərəfindən olunan müraciətlər analiz edilir və müvafiq cavab verilir. Soyqırımla bağlı da müraciətimiz göndəriləndən sonra cavablanacaq. İş adamlarının bizneslərindən qorxub belə addım atmaları kimi yalan xəbərləri buradakı azərbaycanlılara olan təhqir kimi qəbul edirəm. Onlar vətənləri naminə istənilən çağırışa hazır insanlardır. Daim ölkə rəhbərliyinin yanında olmuşuq, dəstəyimizi əsirgəməmişik. Seçkilər öncəsi regionlara çıxmışdıq. Orada olan azərbaycanlılar bir daha vətənə bağlı olduqlarını bildirmişdilər. Bu gün barəmizdə yazılanlar bizi ciddi narahat edir. Bu cür yazılar yersizdir".

**İ.Hacıyev şəxsinə olan ittihamlara da münasibət bildirdi:** “Çox əsassız, kiminsə marağını güdən bir yazıdır. Yarandığı gündən Ümumrusiya Konqresinin üzvüyəm. Prezidentimiz tərəfindən ”Tərəqqi" medalı almışam. Mənə göstərilən etimadı daim doğrultmuşam. Belə şeylər haqsızdır. Heç vaxt kiməsə zəng vurub deməərəm ki, müraciəti imzalamayın. Heysiyyətimizə toxunan hər bir məsələdə birik. Açığı, heç bu yazılara reaksiya vermirəm. Sadəcə, belə yazılar olmasa, daha yaxşı olardı. Ümumiyyətlə, şəxsimdən əlavə, müraciətə imza atmamaq üçün kiməsə zəng edildiyini belə eşitməmişəm. Hansı əsaslarla belə təzyiqlər olmalıdır? Əksinə, bu cür halları dəstəkləyirik. Bir regionda müraciətlər başlayıb, digər regionlar da dəstək verib. Amma konqres adından müraciət olunursa, bunun təsiri daha güclüdür. Çünki təşkilatımızda 31 tanınmış şəxs var. Bu yolda addımlayırıq. Heç bir yazı təsir edə bilməz. Rusiya rəhbərliyi səviyyəsində aidiyyəti orqanlara müraciətimiz təqdim olunacaq".

**İlqar bəy sonda “Yeni Müsavat”a təşəkkür etməyi unutmadı:** “Sağ olun ki, bu məsələ ilə maraqlanırsınız. Həqiqəti üzə çıxarırsınız. Buna görə də sizlərə təşəkkür edirəm. Var olun ki, bu məsələlərə obyektiv yanaşıb, düzgün qiymət verirsiniz”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2016

**Baş nazirin müavini Əli Əhmədov yaxın vaxtlarda Azərbaycanın dərman istehsalına başlayacağını bildirib. Nazir müavini açıqlamasında yaxın vaxtlarda Azərbaycanda dərman istehsal edən müəssisələrin yaradılması üçün danışıqlara başlanacağını qeyd edib. Ə.Əhmədov deyib ki, uzun müddət Azərbaycanda dərman istehsalı praktikası, bu sahənin mütəxəssisləri olmayıb.**

# Azərbaycanda dərman istehsalı-ekspertlər fərqli düşünür

## Musa Quliyev: "Azərbaycanda dərman istehsalı üçün şərait var və bir zavodla kifayətlənmək lazım deyil"



Buna görə də yeganə çıxış yolu korporasiya əsasında xarici ölkələrin ciddi dərman firmaları ilə əlaqələr quraraq müəssisə yaratmaqdır. Hazırda bu istiqamətdə işlərin aparıldığını deyən Ə.Əhmədov bildirib ki, ilkin mərhələdə Azərbaycanda korporasiya əsasında yaxşı imici olan, keyfiyyətli dərman buraxan müəssisələrlə birlikdə dərman istehsalı müəssisələri yaradılacaq. Baş nazirin müavini hesab edir ki, gələcəkdə Azərbaycanın özünün də tədricən dərman istehsalı üzrə praktikası formalaşacaq.

Maraqlıdır, nazir müavininin dediyi kimi, Azərbaycanda dərman istehsal etmək üçün baza varmı? Bu addım saxta dərmanların sayının artmasına səbəb ola bilərmi?

**Milli Məclisin Səhiyyə komitəsinin sədri, deputat Musa Quliyev "Yeni Müsava"a açıqlamasında Azərbaycanda dərman istehsal edilməsi üçün hər cür şəraitin olduğunu dedi:** "Azərbaycanda dərman istehsalı çox vacib bir məsələdir. Dərman istehsalı hər bir ölkənin strateji məsələlərindən biridir. Azərbaycanda dərman istehsalı üçün istər kadr baxımından, istərsə də xammal potensialının olması baxımından hər cür şərait var. Əli müəllimin də dediyindən görünür ki, hökumət burada müştərək dərman istehsalına üstünlük verir. Yəni tanınmış adlı-sanlı dərman şirkətlərinin bir neçəsi ilə birlikdə dərman zavodu açılacaq. Nəzərə alsaq ki, Azərbaycan müharibə vəziyyətində olan bir ölkədir. Ola bilər gələcəkdə də bu, geniş bir miqyas ala bilər. Həmin halda da bizə qısa müddətə dərmanlar lazım ola bilər. Dərmanları xaricdən tapıb gətirənə kimi özümüzünkünün olması yaxşıdır. Digər tərəfdən, bu, yeni iş yerlərinin açılması deməkdir. Həm də Azərbaycanda yerli dərman istehsalı dərmanın maya dəyərinin aşağı düşməsinə səbəb ola biləcək. Amma orada bir nüans var ki, gərək müəyyən vergilər, gömrük rüsumları aradan qaldırılsın və güzəştlər tətbiq edilsin. İndiyə qədər Azərbaycanda dərman zavodları ona görə açılmırdı ki, dərmanlar üçün lazım olan xammala gömrük rüsumları tətbiq edilirdi. Bu da dərmanın maya dəyərinin baha başa gəlməsinə səbəb olurdu. Hesab edirəm ki, dərman zavodu açarkən onun gəlirlilik potensialı da düşünülməlidir ki, təkcə Azərbaycanla kifayətlənməsin və bu dərmanların müəyyən ölkələrə satılması da təmin olunsun ki, ölkəyə valyuta gəlsin".

**M.Quliyev Azərbaycanın dərman bitkiləri ehtiyatı ilə zəngin olduğunu bildirdi:** "Bizim özümüzün dərman zavodlarımız olarsa, təbiətin bizə bəxş etdiyi bu nemətdən də istifadə edərək dərmanlar hazırlamaq olar. Kənd yerlərində də dərman bitkilərinin yığılması becərilməsi ilə əhalinin məşğuliyyəti təmin edilə bilər. Biz hazırda dərmanları xarici ölkələrdən valyuta ilə alırıq. Bugünkü iqtisadi situasiyada bizə hər növ vasitə ilə valyuta lazımdır. Buna görə də biz valyutanı kənara çıxartmaq yox, öz ölkəmizdə istehsal etdiyimiz dərmanları keyfiyyətli və bazara rəqabətli şəkildə istehsal etməliyik ki, biz onları xarici ölkələrə də sata bilək. Dərmanın ölkədə istehsal edilməsi onun maya dəyərinin aşağı düşməsinə və Azərbaycan vətəndaşının daha ucuz dərman almasına səbəb olacaq. Dərmanın keyfiyyəti məsələsinə gəlincə isə bu daha çox standartlardır. Standartlar tətbiq olunur. Bu dəqiqə dərmanlar müasir aparatlarla ərsəyə gətirilir və elə standartlaşdırılır ki, orada istəsən də keyfiyyətsiz dərman istehsal edə bilmirsən. Şübhəsiz ki, bu sahəyə dövlətin də nəzarəti olacaq. Mən hesab edirəm ki, Azərbaycanda dərman istehsalı üçün şərait var və bir zavodla kifayətlənmək lazım deyil. Bir böyük və bir neçə kiçik zavodlar açmaq lazımdır. Məsələn, qonşu Gürcüstanın 5 dərman zavodu var. Onlar nəinki özlərini dərmanla təmin edir, hətta başqa ölkələrə də satırlar".

> **"Dərman istehsal etmək üçün lazım olan avadanlıqlar Azərbaycanda yoxdur"**

**Tibb elmləri doktoru, professor Adil Qeybulla isə dərman istehsalının çox mürəkkəb bir proses olduğunu dedi:** "Azərbaycanda dərman sənayesinin inkişafı olduqca vacib bir məsələdir. Sovet dövründə də belə bir sahə olub. Düzdür, bizdə o qədər də yüksək keyfiyyətli və vacib dərman preparatları istehsal olunmasa da, belə bir təcrübə var. Bunu inkişaf etdirmək lazımdır. Bunu isə hansısa kimya zavodunda yox, aparıcı firmaların iştirakı ilə həyata keçirilsin. Yəni onlarla müştərək şəklində mütəxəssislər dəvət edilməsi, avadanlıq alınması lazımdır. Bu məsələnin hərtərəfli inkişafı yalnız bu şəkildə ola bilər. Yoxsa ki, kimya zavodunda və yaxud da başqa yerdə dərman istehsal etmək qeyri- mümkün olar. Dərman istehsal etmək üçün lazım olan avadanlıqlar Azərbaycanda yoxdur. Ümumiyyətlə, dərman istehsalı prosesi çox mürəkkəb bir prosesdir. Onun müxtəlif kimyəvi qatqıları, maxinasiyası var".

**ARDNŞ-in "Azərkimya" İstehsalat Birliyinin Müşahidə Şurasının rəhbəri, Milli Məclisin deputatı Muxtar Babayev modern.az-a Sumqayıt Kimya Parkında bu cür dərmanların istehsalının mümkün ola biləcəyini deyib. O qeyd edib ki, Sumqayıt kimya kompleksində əczaçılıq zavodu fəaliyyət göstərib. Lakin bu müəssisə 2001-ci ildə özəlləşdirilməyə açıq elan olunub və sonradan özəlləşdirilib. Deputat bildirib ki, ARDNŞ-in təsdiqlədiyi "Azərkimya"nın perspektiv planında dərman istehsalı sahəsinin yaradılması nəzərdə tutulmayıb:** "Hesab edirik ki, Sumqayıtda yaradılan kimya sənaye parkında bu tipli istehsalatların yaradılması maraqlı olar, bu parkda yeni yaradılan müəssisələr üçün lazımi şərait və üstünlüklər təklif oluna bilər. Bildiyimə görə, farmasevtika preparatları istehsalatların yaradılması ilə bağlı kimya parkının müdiriyyətinin müxtəlif təklifləri də müzakirə olunub".

**Qurumun rəhbəri vurğulayıb ki, bu tipli müəssisələrin təsis olunmasında özəl biznesin iştirak etməsi nəzərdə tutulmalıdır:** "Sözsüz ki, bazarın öyrənilməsi, texniki-iqtisadi əsaslandırma, biznes-plan və digər araşdırmalar aparılandan sonra hansısa istehsal sahəsinin yaradılması ilə bağlı konkret təkliflər verilə bilər".

❑ **Günel MANAFLI**

# Neftçilərin ixtisarı davam edəcək

## Ekspertlər neft sektorunda ötən illərdən başlanan ixtisar dalğasının daha da güclənəcəyini proqnozlaşdırırlar

**Neftin ucuzlaşması neft şirkətlərində işçilərin ixtisarını da qaçılmaz edir. Neftin qiyməti ucuzlaşmazdan əvvəl də neft sektorunda başlanan ixtisar dalğasının daha da güclənəcəyi proqnozlaşdırılır. Ekspertlər bildirirlər ki, şirkətlər ixtisara getməyə məcburdurlar.**



**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının rəhbəri Mirvari Qəhrəmanlı** musavat.com-a açıqlamasında bildirib ki, ötən illərdən başlanan ixtisarlar 2016-cı ildə davam edəcək: "Düşünürəm ki, ixtisarlar davam edəcək. Yəni ARDNŞ-də ixtisarlar artıq 3 ildir ki, davam edir. Aldığımız məlumata görə, bp-də də ötən ilin axırında xəbərdarlıq verilib. Ölkədə reallaşdırılan neft layihələrində ixtisarlar gözlənilmir. Amma bp və onun tərəfdaşlarında, podratçı və subpodratçı şirkətlərdə ixtisarlar ola bilər. Bizə bəzi informasiyalar daxil olub. Məsələn, ARDNŞ-də qazma işlərinin azaldılması gedir. Bu, həm hasilatın azalması, həm də işçi ixtisarıdır. ARDNŞ və ölkəmizdə fəaliyyət göstərən əksər neft şirkətlərində işçilərlə müvəqqəti müqavilə bağlanır. Məhz müvəqqəti müqavilənin bitməsi bəhanəsi ilə işdən azad olunanların sayı ixtisar edilənlərdən çoxdur".

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov isə bildirir ki, ixtisara düşən işçilərin hüquqları Əmək Qanunvericiliyi ilə tənzimlənir:** "İşçi ixtisar olunursa, ilk növbədə əmək qanunvericiliyinin tələblərinə riayət edilməlidir. İşçi ixtisar ediləcəksə, 2 ay əvvəldən ona bu barədə xəbərdarlıq edilməlidir. Bu 2 ay müddətində işçiyə şərait yaradılmalıdır ki, özünə yeni iş yeri tapsın. Bunun üçün də 2 ay müddətində işçiyə ödənişli istirahət günləri verilməlidir. İşdən azad olunan işçiyə bir ay orta aylıq əmək haqqı miqdarında müavinət verilməlidir. Şəxs gedib Məşğulluq İdarəsində qeydiyyata düşməlidir. Əgər ikinci və üçüncü aylar ərzində işçi iş tapmırsa, bu aylar üçün də ona müavinət verilməlidir. Bu, qanunvericiliyin təyin etdiyi qaydadır və məcburidir".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə qeyd edib ki, «BP Global» orta müddətli proqnozunda 2017-ci ilə qədər kapital xərclərini 22,9 milyard dollardan 17-19 milyard dollara qədər azaldacağını açıqlayıb:** "Bu, 25 faiz azalma deməkdir. İndi bütün neft şirkətləri xərclərini azaltmaq barədə qərarlar qəbul edirlər. Bir qədər əvvəl SOCAR prezidenti Rövnəq Abdullayev də belə bir əmr imzaladı. Bu əmrə əsasən, qurumların tərkibinə daxil olan bölmələrin sayının və ştat vahidlərinin yenidən nəzərdən keçirilməsi, maliyyə resurslarının ilk növbədə daha az vəsait tələb edən yüksək rentabelli sahələrə yönəldilməsi nəzərdə tutulur. Bu müddəa SOCAR-ın ştat cədvəlinin daha optimallaşdırılması yönündə addımlar atılması deməkdir. Yəni indiyə qədər SOCAR işçilərinin sayı artıq 54 minə qədər azaldılmışdı. Ancaq onun hesabatları ilə tanış olanda biz nə görürdük: 2011-ci ildə SOCAR-da 79,9 min nəfər çalışırdı. 2014-cü ildə SOCAR ilk dəfə olaraq neftin maya dəyərini 1,4 faiz azaltmağa nail olmuşdu, nəticədə 1 barel neftin orta qiyməti 16 dollara qədər azalmışdı, tonu 91,63 manat. Bunun əsas səbəblərindən biri də SOCAR-ın işçilərinin azaldılması hesabına baş vermişdi, belə ki, SOCAR neftinin maya dəyərində ən yüksək payı- 17,7 faizlə əmək haqları xərcləri təşkil edir. SOCAR üç pilləli idarəetmədən ikipilləli idarəetməyə keçməklə aralıq təşkilatları ləğv edir, sonra isə yeni optimal idarəetmə mexanizminə start verəcək, baş idarələrdəki rəhbər işçilərin ixtisarına. Çünki işçilərin sayı azaldığı halda onlara rəhbərlik edən menecment də azalmalıdır. Nəticə etibarilə 2018-ci ilin sonuna SOCAR mərhələ-mərhələ işçi sayını 40 minə qədər azaldacaq.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağda müharibəni alovlandıra biləcək yeni qarşıdurma: Tehran - ər-Riyad

Türkiyə-Rusiya gərginliyi fonunda Moskva Ermənistan səmasını da nəzarət altına aldı, bəs bu dəfə nələr gözlənilir? **Politoloq:** "Ərazilərin qaytarılması əməliyyatı başlanarsa, Rusiya və İran Ermənistana açıq və gizli dəstək verəcək..."

**2016-cı ilin ilk günləri Azərbaycana yaxın bölgədə daha bir münaqişə ocağı çatılmaq üzrədir. Səudiyyə Ərəbistanında nüfuzlu şiə din xadimlərindən birinin edam olunmasına Tehrandan verilən kəskin reaksiya iki paytaxt arasında "soyuq müharibə"nin əsasını qoyub.**

ABŞ Mərkəzi Komandanlığının keçmiş komandanı, dəniz piyadalarının istefada olan generalı Entoni Zinni isə deyib ki, Səudiyyə ilə İran müharibənin bir addımlığındadır. Paralel olaraq Türkiyə və Rusiya arasında da gərgin münasibətlər davam edir. Sözsüz ki, region ölkələrində baş verənlər Azərbaycanı da çətin situasiya ilə üz-üzə qoyur. İlk növbədə rəsmi Bakı münaqişə tərəfləri arasında seçim etmək məcburiyyəti qarşısında qalır. Əraziləri on illərdir işğal altında olan ölkəmiz isə əlavə hansısa problemlərlə üzləşməmək, böyük dövlətlərin təzyiqlərinə tuş gəlməmək üçün maksimum ehtiyatlı davranmağa çalışır.

Türkiyə-Rusiya gərginliyinə ehtiyatlı yanaşan Bakı hələ ki Tehranla ər-Riyad arasındakı konfliktə münasibətini açıqlamır. Elə materialı hazırlayarkən bununla bağlı Azərbaycan XİN-in mövqeyini öyrənmək cəhdimiz də alınmadı. Ancaq hesab olunur ki, istənilən halda qonşulardakı konfliktlər bu və ya digər formada Qarabağ münaqişəsinin həllinə təsir edəcək, ən azı yeni münaqişələr onsuz da həlli dalana dirənmiş Qarabağ məsələsini arxa plana keçirəcək. Ümumən bölgədəki gərginlik irimiqyaslı müharibəyə çevrilərsə, özü də müharibə vəziyyətində olan Azərbaycanı nə gözləyir?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında Səudiyyə Ərəbistanı ilə İran arasındakı gərginliyin bölgədə müharibəyə rəvac verəcəyini düşünmədiyini dedi:** "Hər halda, iki dövlət qırmızı çizgini keçməməyə çalışacaq. Buna baxmayaraq, Səudiyyə Ərəbistanı ilə İran arasındakı gərginlik bu sualı da aktuallaşdırıb: Azərbaycan kiminlədir və ya Azərbaycan bu durumda hansı mövqe tutmalıdır? Rusiyanın televiziya kanalları hazırkı qarşıdurmadan danışarkən sünni və şiə xəritələrini ekrana gətirirlər, həmin xəritədə isə Azərbaycanı şiə rənginə boyayırlar. Bəli, nisbətə görə şiələr Azərbaycanda çoxluq təşkil edir. Ancaq nə yaxşı ki, bizdə milli mənsubiyyət məzhəb amilindən üstün gəlir. Məsələn, İranda yaşayan farslar da şiədir, azərbaycanlılar da. Ancaq azərbaycanlıların böyük əksəriyyəti farsların siyasətindən narazıdır. Ona qalsa, sünni blokunun lideri sayılan Səudiyyə Ərəbistanı Azərbaycanın müttəfiqidir, işğal amilinə görə Ermənistanla diplomatik münasibətləri yoxdur. Halbuki şiə İranın işğalçı dövlətlə münasibətləri də var, hələ yeni qaz kəməri çəkməyi də planlaşdırır".


Elxan Şahinoğlu

**Buna baxmayaraq, E.Şahinoğlu hesab edir ki, Səudiyyə Ərəbistanı-İran gərginliyində Bakı neytral qalmalıdır:** "Ən yaxşı halda vəziyyətdən "biz Azərbaycana yaxın olan bu iki dövlət arasında münasibətlərin danışıqlar yolu ilə həllini arzulayırıq" açıqlamasıyla çıxmalıyıq. Səudiyyə Ərəbistanı ilə İran arasındakı qarşıdurma Rusiya hakimiyyətini də çətin dilemma qarşısında qoyub. Kreml Əsəd verdiyi hərbi dəstəyə görə "şiə bloku"nun - İran, İraq və "Hezbullah"ın yanında yer alıb. Ancaq məsələ burasındadır ki, Rusiyanın müsəlman əhalisinin əksəriyyəti özünü sünni məzhəbinə aid edir və İrana elə bir rəğbətləri yoxdur. Ona görə də Kreml rəsmi Bakı kimi Səudiyyə Ərəbistanı-İran qarşıdurmasında Tehranın yanında yer tuta bilməz. Elə Rusiya XİN-in ər-Riyad-Tehran qarşıdurmasıyla bağlı son balanslı açıqlaması da bundan xəbər verir".

**Politoloq şübhə etmir ki, Rusiya-Türkiyə və Səudiyyə Ərəbistanı-İran münasibətlərinin gərginləşməsinin Cənubi Qafqazdakı duruma da müəyyən təsirləri var:** "Məsələn, əgər Azərbaycan Səudiyyə Ərəbistanının istəyi ilə "İslam koalisiyası"na daxil olsa, bu, İran-Azərbaycan və Rusiya-Azərbaycan münasibətlərini xeyli gərginləşdirər. Çünki həm Rusiya, həm də İran "İslam koalisiyası"nı rəqib dövlətlərin strukturu sayırlar. Bölgədəki mövcud gərginlik fonunda Dağlıq Qarabağda lokal toqquşmaların genişmiqyaslı toqquşmalara çevrilməsi ehtimalı azdır. Ancaq onu da nəzərə almalıyıq ki, Dağlıq Qarabağ və ətraf rayonların geri qaytarılması əməliyyatına başlanılması halında Rusiya və İran Ermənistanın yanında qərar tutacaq, onlar İrəvana açıq və gizli dəstək verəcək".

# Azərbaycan ordusunun Horadiz zəfəri

## Qarabağdakı sonuncu uğurlu əməliyyatdan 22 il keçir; iştirakçılar danışır...

**Birinci Qarabağ müharibəsində ən uğurlu əməliyyatlardan biri olan Horadiz əməliyyatından 22 il ötdü. 1994-cü ilin 5-6 yanvarında Milli Ordunun qrupları əks-hücuma keçərək Füzulinin Horadiz qəsəbəsini və 22 kəndi düşməndən azad edib. Məhz bu əməliyyatdan sonra ermənilər ağır itki verərək 25 kilometr geriyə çəkilib. Horadiz düşmənin diz çökdürüldüyü döyüşlərdəndir.**

1993-cü ilədək Dağlıq Qarabağ və ətraf rayonların itirilməsindən sonra silahlı qüvvələrimiz bu uğurlu hərbi əməliyyatla Füzuli rayonunun 30 min hektarlıq ərazisini geri qaytarıb. Əməliyyat Arazboyu, Əhmədbəyli, Kürdmahmudlu, Alıxanlı kəndləri istiqamətində başlanılır. Əvvəlcə kəşfiyyatçılar Araz çayının sahili ilə düşmən qüvvələrinin arxasına keçir. Digər bir dəstə isə ermənilərin əsas qüvvələrinin hərəkət edəcəyi Şükürbəyli və Böyük Bəhmənli istiqamətində pusqu qurur. Erməni silahlı birləşmələri 4 istiqamətdən hücuma məruz qalır.

"Əhmədbəyli və Şükürbəyli istiqamətlərində hücuma keçmişik və bir gün ərzində həmin kəndləri azad etmişik. Növbəti, ikinci döyüşümüz isə Seyidəhmədli uğrunda olub. Bir sutka ərzində davam edən hərbi əməliyyatdan sonra Seyidəhmədlini düşməndən azad etmişik", - deyə bölük komandiri Radik Qarayev ANS-ə bildirib. "Horadizin azad olunmasında 4 batalyon və bir kəşfiyyat bölüyünün böyük xidmətləri olub. Xüsusən də əməliyyatda iştirak edən ikinci motoatıcı batalyonun özünəməxsus yeri vardı", - deyə batalyon komandiri Zahir Həsənov qeyd edib.

Bir günlük əməliyyat nəticəsində tam formalaşmamış Azərbaycan ordusu 25 km irəliləmişdi. Hesab olunur ki, Azərbaycan Silahlı Qüvvələrinə işğal olunmuş torpaqları geri qaytarmaq üçün bir neçə gün bəs edər. "Bununla bağlı proqnoz vermək istəmirəm. Çünki proqnoz vermək hərbçilərin işi deyil. Azərbaycan Silahlı Qüvvələri həm Ali Baş Komandanın, həm də müdafiə nazirinin əmirini yerinə yetirməyə hər an hazırdır", - deyə briqada komandiri Şaiq Ramaldanov bildirib.

**Horadiz əməliyyatının iştirakçılarından biri, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov isə "Yeni Müsavat"a bildirdi ki, 22 il əvvəlki uğurlu hərbi əməliyyat Azərbaycan əsgərinin nəyə qadir olduğunu göstərdi. Üstündən keçən bu illər ərzində ordumuzun kifayət qədər güclənməsi, Silahlı Qüvvələrimizin modern silah-sursat və hərbi texnika ilə təmin olunması isə onu deməyə əsas verir ki, bu gün savaş başlasa, düşmənə sarsıdıcı zərbələr vuracağıq:** "Mən Azərbaycanın Milli Qəhrəmanı, Horadiz əməliyyatının qəhrəmanlarından biri Elxan Zülfüqarovun məzarını ziyarət edərkən də bu barədə dedim. Biz çox istəyirik ki, tezliklə müharibə başlasın. Bizim arzumuz budur ki, artıq bu illər ərzində topladığımız həyat təcrübəsi və bacarığımızdan istifadə edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz danışıqların sonsuzluğa qədər uzanmasını istəmirik. İşğalçıya "ayı xidməti" göstərən üçlük, həmsədr ölkələr də məsələnin ədalətli həllində maraqlı deyil. Ona görə də istəmirik ki, 2016-cı ildə də mənasız danışıqların şahidi olaq. Çox istərdik ki, Azərbaycan rəhbərliyi daha Sərkisyanla görüşməsin. İndi də çalışırlar ki, Minskdə prezidentləri bir araya gətirsinlər. Amma Minsk görüşü də heç nə ilə yadda qalmayacaq. Sadəcə, ermənilər növbəti dəfə vaxtı uzatmaq imkanı qazanırlar".


Üzeyir Cəfərov

**Ü.Cəfərov işğalçı ölkənin getdikcə daha geniş imkanlara sahibləndiyini vurğuladı:** "Rusiya MİQ -29 təyyarələri və döyüş avadanlıqlarının növbəti partiyasını Ermənistana gətirir. Getdikcə düşmən Rusiyanın sayəsində güclənir. Ona görə də biz vaxtın uzadılmasına yönəlik cəhdlərə qarşı çıxmalı, torpaqlarımızı azad etmək üçün hərəkətə keçməliyik".

**Hərbi ekspert onu da bildirdi ki, Rusiyanın Cənubi Qafqazda yeganə dayaq nöqtəsi sayıla biləcək Ermənistanın hava məkanını da nəzarətə almasına qeyri-adi baxmaq lazım deyil:** "Bu, adı olub, özü isə tam formal bir dövlətdir. Bir dövlətin ki, bütün idarəetmə rıçaqları başqasının əlindədir, onun nəyi müstəqil dövlətdir? İqtisadiyyatı rusların əlində, sərhədləri rus ordusu tərəfindən qorunur, indi hava məkanını da özləri öz güclərinə idarə edə bilmədiklərinə görə verdilər rusların ixtiyarına. Nəzəri baxımdan bu addımın regiona bir az təhlükəsi olmasını düşünmək olar. Amma kim Ermənistana hücum etməyə və ya onun ərazisinə girməyə hazırlaşır ki?"

**Ü.Cəfərov qeyd etdi ki, Rusiyanın bu qərarı Azərbaycandan daha çox regionun söz sahibi olan Türkiyəyə ünvanlanmış bir addımdır, desək, daha dəqiq olar:** "Xüsusən də son vaxtlar gərginləşən Rusiya-Türkiyə münasibətləri fonunda bu hərəkət o qədər də təəccüblü gəlməməlidir. Məsələnin digər tərəfini götürsək, mən də tuturam, düşünmürəm ki, bu addım ruslar tərəfindən atılsın. Yeni sabah Azərbaycan Ermənistan Silahlı Qüvvələrinin nəzarətindəki öz ərazilərini antiterror əməliyyatları çərçivəsində boşaltmağa başlayanda Rusiyanın yeganə edə biləcəyi diplomatik fonda hansısa bəyanatlar səsləndirmək olacaq. Bundan artığını etməyə cəhd edən rusları çox ağır durum gözləyə bilər. Özü də digər aparıcı dövlətlər və elə bizim strateji müttəfiqimiz olan Türkiyə tərəfdən. Yaxud Ermənistan təxribat edib Azərbaycanı guya ona zərər vurmaqda günahlandırmağa cəhd edəndə belə biz bütün imkanlardan istifadə edib işğalçıya layiq olduğu yerini göstərməliyik".

**Hərbi ekspertə görə, Ermənistanın ən çox güvəndiyi Rusiya tərəfi çalışacaq ki, məsələyə hansısa formada müdaxilə etsin:** "Amma düşünmürəm ki, bu, hərbi formada olsun. Həm beynəlxalq güclər, həm də Azərbaycan özü lazım olan addımları atır və eyni zamanda da diplomatik korpus tərəfindən atmaqda davam etməlidir. Onu da qeyd edim ki, hələ keçmiş SSRİ vaxtlarından Azərbaycanın ən etibarlı və ən güclü Hərbi Hava Qüvvələri və Hava Hücumundan müdafiə sistemləri ilə təchiz edilmiş sistemləri olub və indinin özündə də o sistemlər daha müasir və modern avadanlıqlarla təchiz edilib".

**Lakin Ü.Cəfərov Rusiya faktorundan ciddi narahatlığa əsas görmür:** "Horadiz əməliyyatını keçirəndə də Rusiya Ermənistanın tərəfində idi. Biz o zaman bilirdik ki, ermənilərin ən böyük planı Rusiyanın dəstəyi ilə Beyləqanı işğal etməkdir. Amma əks hücuma keçib qısa müddətdə Horadizi və Füzuli rayonunun 21 yaşayış məntəqəsini, o cümlədən Cəbrayılın Cocuq Mərcanlı kəndini işğalçılardan təmizlədik. O zaman atəşkəs razılaşması olmasaydı, bəlkə də indi Azərbaycan bayrağı Xankəndində dalğalanırdı".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2016

# Sürücülərə şad xəbər: cərimə azaldılır, bal ləğv olunur

**Mayın 1-dən qüvvəyə minməsi gözlənilən yeni İnzibati Xətalar Məcəlləsində (İXM) ciddi konseptual dəyişikliklər olmasa da, bəzi maraqlı məqamlar da var. Onlardan biri sürücülərlə piyadaların qarşılıqlı münasibəti ilə bağlıdır.**



Avtosfer.az-ın məlumatına görə, məlumdur ki, hazırda sürücülər piyadalar barəsində, daha doğrusu, piyada keçidində hərəkətlə bağlı qaydaları pozduğu halda şəraitdən asılı olaraq daha çox İXM-in iki maddəsi ilə inzibati məsuliyyət yarana bilər:

**1.** Yolayrıcından kənardakı nizamlanmayan (svetoforsuz) piyada keçidində piyadaya yol verməməyə görə sürücülər İXM-in 151-3-cü maddəsi ilə 50 manat cərimə olunurlar;

**2.** Yol ayırıcında sağa və ya sola dönərkən döndüyü yolu keçməkdə olan piyadaya yol verməyən sürücülər İXM-in 151.2-ci maddəsi üzrə yolayrıcını keçmə qaydalarını pozmaya görə 60 manat cərimə olunurlar və onlara 3 cərimə balı yazılır.

Yeni məcəllə bu qarışıqlığa birdəfəlik son qoyaraq vahid bir maddədə piyadaya yol verməyən sürücü üçün məsuliyyət nəzərdə tutur. Özü də sürücülərin məsuliyyətini əhəmiyyətli dərəcədə yüngülləşdirməklə. Belə ki, məcəllə qüvvəyə minəndən sonra istər yolayrıcında dönərkən, istərsə də yolayrıcından kənarda nizamlanmayan keçiddə piyadaya yol verməyən sürücü 50 manat cərimə olunacaq. Buna görə də heç bir cərimə balı nəzərdə tutulmur.

Yeni maddənin ən mühüm özəlliyi isə odur ki, piyadaya yol verməməyin normativ anlayışı nəzərdə tutulur. Bu zaman yol verməmənin klassik anlayışı əsas götürülməklə qeyd olunur ki, sürücünün piyadaya yol verməməsi onun idarə etdiyi nəqliyyat vasitəsinin hərəkətini davam etdirəcəyi və ya yenidən hərəkətə başlayacağı təqdirdə piyadanın öz hərəkət sürətini və ya hərəkət istiqamətini dəyişməyə məcbur olması kimi başa düşülməlidir.



# Alıcıları aldadan satıcılar daha sərt cəzalandırılacaq

**Azərbaycanda ticarət sahəsində alıcıların aldadılması ilə bağlı məsuliyyət yaradan şərtlərin sayı artırılır, yeni sərt cəzalar tətbiq edilir və eyni zamanda fiziki şəxslərin bu hal üzrə məsuliyyət daşıması müəyyənləşdirilir.**

APA-nın məlumatına görə, bu, Milli Məclis tərəfindən yeni qəbul olunmuş İnzibati Xətalar Məcəlləsinin 446-cı (İstehlakçı hüquqlarının pozulması) maddəsində təsbit olunub.

Yeni maddəyə əsasən mal satan və ya əhaliyə xidmət göstərən şəxslər tərəfindən malın ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyətinə, keyfiyyətinə dair istehlakçıların az miqdarda (az miqdar dedikdə, 40 manata qədər nəzərdə tutulur) aldadılması da məsuliyyət yaradacaq.

Bütün bunlara görə fiziki şəxslər 350 manatdan 500 manata qədər, vəzifəli şəxslər 1500 manatdan 2 000 manata qədər, hüquqi şəxslər isə 4 000 manatdan 6 000 manata qədər cərimə olunacaqlar.

Hazırda qüvvədə olan məcəlləyə görə isə cəzalar yalnız vəzifəli və hüquqi şəxslər üçün nəzərdə tutulur ki, bu da müvafiq olaraq 1000 manatdan 1500 manata qədər, 4 000 manatdan 5 000 manata qədərdir.

Azərbaycan prezidenti tərəfindən təqdim olunmuş yeni İnzibati Xətalar Məcəlləsi dekabrın 29-da Milli Məclis tərəfindən qəbul olunub və 2016-cı il mayın 1-dən qüvvəyə minəcək.



# Ər evdə istilik olmamasından şikayət edən arvadını öldürdü

**Füzuli rayonunda dəhşətli qətl hadisəsi baş verib. Füzuli Rayon Polis Şöbəsindən virtualaz.org-a bildiriblər ki, rayonun Bala Bəhmənli kənd sakini, 1978-ci il təvəllüdlü Gəncəvi Zöhrab oğlu Sadıqov şəxsi mənzilində, aralarında yaranan mübahisə zəminində həyat yoldaşı, 1984-cü il təvəllüdlü Vüsalə Hidayət qızı Əsədovanın boğazını kəsib.**

31 yaşlı qadın aldığı bıçaq yaralarından hadisə yerindəcə dünyasını dəyişib. Hadisə ailənin iki azyaşlı övladının gözü qarşısında baş verib.

Hazırda rayon hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerində araşdırma aparırlar.

Faktla bağlı Füzili Rayon Prokurorluğunda cinayət məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb.

İlkin məlumata görə, ərlə arvad arasında mübahisə evdə istiliyin olmaması səbəbindən yaranıb. Arvadı gileylənib ki, evdə istilik yoxdur, uşaqlar soyuqdan donur, o isə bir ər kimi buna heç bir əncam çəkmir.

Bu söz ev sahibinin xoşuna gəlməyib, onu özündən çıxarıb və... sonu məlumdur.

Rayon polisindən o da bildirilib ki, bu ailədə həmişə qalmaqal olub. Məhz bu səbəbdən də Sadıqovlar ailəsi "problemli ailə" kimi polisdə qeydiyyata götürülübmüş.

# Soyğunçuluqda təqsirləndirilən şəxs məhkəmə zalında həbs edildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində soyğunçuluqda təqsirləndirilən Vaqif Novruzovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə V. Novruzov 4 il müddətinə azadlıqdan məhrum edilib. Zamində olan V. Novruzov məhkəmə zalında həbs olunub.**

Qeyd edək ki, V. Novruzov Cinayət Məcəlləsinin 180-ci (soyğunçuluq) maddəsi ilə ittiham edilib.

# Universitetin kafedra müdirinin evinə maskalı basqın...

**Yanvarın 5-də gecə saat 4 radələrində Gəncə şəhərində yaşayan Qəmbər Abdullayevin evinə nəfəslikdən girmiş 4 maskalı şəxs səsə oyanmış ev sahibinə və onun oğlu Kənana küt alətlə xəsarət yetirərək pul verməlerini tələb edib. Səs-küy yarandığından onlar istədiklərinə nail ola bilməyib, hadisə yerini tərk ediblər.**

Nizami (Gəncə) RPİ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətmiş şəhər sakinləri Ziyaməddin Əsgərov, əvvəllər məhkum olunmuş Samir Əsgərov, Azər Həsənov və Ceyhun İsmayılov tutulublar.

APA-nın əldə etdiyi məlumata görə, basqına məruz qalan Qəmbər Abdullayev Azərbaycan Dövlət Aqrar Universitetində kafedra müdiri vəzifəsində çalışır.

# Maddi problemləri olan gənc özünü bıçaqladı

**Bakıda 27 yaşlı oğlan intihara cəhd edib. Lent.az-ın məlumatına görə, hadisə Nəsimi rayonu ərazisində, 28 May küçəsində baş verib. 1989-cu il təvəllüdlü Vəlizadə Müşfiq Nazim oğlu bıçaqla qarnına xəsarətlər yetirib. O, dərhal Kliniki Tibbi Mərkəzə yerləşdirilib. M.Vəlizadənin yaxınları bildiriblər ki, o, maddi çətinliklər ucbatından həyatına qəsd edib. Faktla bağlı araşdırma aparılır.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 3 (6324) 7 yanvar 2015

# Devalvasiya gözəllik salonlarını da vurub

## Saç ustaları müştəri azlığından, müştərilər isə bahalıqdan gileylənir…



**Devalvasiya bütün sahələrlə yanaşı, gözəllik salonlarına da təsir edib. Belə ki, bahalaşma gözəllik salonlarının həm işini çətinləşdirib, həm də müştərilərini azaldıb. İşini ona görə çətinləşdirib ki, salon üçün lazım olan bütün avadanlıqların və ləvazimatların qiyməti demək olar, iki dəfə bahalaşıb. Gözəllik salonlarının hazırkı vəziyyəti ilə daha yaxından tanış olmaq üçün ucuz və bahalı yer kimi tanınan iki salona baş çəkdik.**

Qeyd edək ki, gözəllik salonları da yerləşdiyi yerə və çalışanlarının təcrübəsinə görə iki qrupa (bahalı və ucuz) bölünür. Hər iki gözəllik salonunda müştəri qıtlığı yaşanırdı. Qiymətlərin bahalığını da müşahidə etdik.

**İlk baş çəkdiyimiz nisbətən ucuz salonda əvvəllər 5 manata edilən "ukladka" (saçın düzləşdirilməsi) indi 8 manata edilirdi. Saç ustaları bunu salon üçün lazım olan vasitələrin qiymətinin bahalaşması ilə izah edirdilər. Saç ustası Ləman Quliyeva salona gedənlərin azaldığını bildirdi:** "Heç salona gələn də yoxdur. Toya getmək istəyənlər evdə saçını özləri düzəldib gedir. Keçən il Yeni il bayramına 3-4 gün qalmış insanlar xaricə gedirdilər. Bu il heç restorana gedən də olmadı. Devalvasiyadan sonra müştərilərimiz çox azalıb. Həmişə Yeni ilə bir həftə qalmışdan müştəri əlindən tərpənə bilmirdik, yaxşı işləyirdik. Bu il isə cəmi bir gün, Yeni il günü işləyə bildik. O da az sayda müştəri ilə. Elə gün olur ki, gün boyu bir müştərim olur, ya yox. Bahalıqdır deyə nə restorana gedən var, nə də ki, toya, qonaqlığa. Bunlar olmayanda da salona gələn olmur".

**Digər saç ustası Sevda İsmayılova isə onlara lazım olan bütün məmulatların bahalaşdığını dedi:** "Əvvəl 3 manat 50 qəpiyə aldığımız şampunu indi 4 manat 50 qəpiyə alırıq. 1 manat 80 qəpiyə aldığımız saç lakı indi 3 manat olub. Saç boyasını 3 manata alırdıqsa, indi 4 manata alırıq. 4 manatlıq saç boyaları isə indi 6 manata satılır. Buna görə də xidmətin qiymətlərini artırmışıq. Saçını boyatmaq üçün salona müraciət edənlərin sayı azalıb. Çoxları boyanı alıb evdə özləri qoyur. "Ukladkanı" 5 manata edirdiksə, indi 7-8 manata edirik ki, bizə də 2-3 manat pul qalsın. Xidmət qiymətlərini bahalaşdırdığımız üçün çox müştərimiz bizi qınayır. Amma bizi də başa düşsünlər. Biz də salona icarə haqqı veririk, faizə işləyirik. Həm də ki, bahalıq göz qabağındadır. Biz də uşağımızı bir tikə çörək pulu aparmalıyıq. Əslində insanları da qınamıram. Amma burada bizlik də bir şey yoxdur. Qiymətlər bahalaşandan sonra salona gələnlərin sayı azalıb. Məsələn, bu Yeni il günü salona gələn olmayıb. Keçən il belə olmamışdı. Keçən Yeni il günü biz müştərilərə çata bilmirdik. İndi isə boş-boş oturub gözümüz qapıda bir nəfər də olsa, müştərinin gəlməsini gözləyirik. Əvvəllər günə 30-50 manat qazancımız olurdusa, indi 10 manat olur uzağı".



**Baş çəkdiyimiz digər - nisbətən bahalı salondakı qiymətlərdə də artım vardı. Məsələn burada əvvəl 20 manata edilən "ukladka" indi 25 manata, 15 manata kəsilən adi saç 20 manata kəsilirdi. Saç boyanmasının qiymətləri isə növünə görə dəyişirdi. Salonda çalışan saç ustası Səma Əliyeva qiyməti eşidib geri qayıdan müştərilərinin olduğunu dedi:** "Bir neçə daimi müştərimiz vardı. Onlar bahalıqdan sonra gəlib qiyməti eşidəndə bizdən inciyərək getdilər. Ancaq bizi başa düşmürlər ki, saç boyalarının, şampunun, makiyaj üçün lazım olan kosmetikaların qiyməti bahalaşıb. Biz istifadə etdiyimiz məmulatları baha alıb necə ucuz xidmət göstərək?! Belə etsək biz ancaq ziyana işləyərik. Müştərilərimiz azalsa da gələnlər var. Saç kəsimlərində də artımlar etmişik".

**İçəridə olan müştərilərdən fikir aldıq. Saçını kəsdirməyə gələn Afaq Muxtarova deyir ki, saçlarının ucundan bir az kəsməyə görə ondan 15 manat pul alıblar:** "Başa düşürük, bahalıqdır. Amma saçın ucundan bir az kəsməyə görə 15 manat, sizcə, çox deyilmi?! Qayçının da qiyməti bahalaşıb?!"

Bu zaman söhbətə qatılan saç ustası saçın kəsilmədən əvvəl yuyulduğunu, yuyulma zamanı şampundan istifadə edildiyini, şampunun isə qiymətinin bahalaşdığını əsas gətirərək haqlı olaraq qiyməti artırdıqlarını dedi.

**Sırasının gəlməsini gözləyən digər müştəri isə bahalaşmanın günahının salonlarda, ustalarda yox, hökumətdə olduğunu dedi:** "Salonların bir günahı yoxdur. Hər şeyin qiyməti bahalaşıb. Satıcıya, ustaya, bank işçilərinə təpinməkdənsə, bu bahalaşmaya səbəb olanlara, bunun qarşısını ala bilməyən hökumətə səs çıxartmaq lazımdır. Hələ bu harasıdır?! Bu gedişlə salonda yox, çörək növbəsində dayanacağıq".

Qeyd edək ki, kişi salonlarında da bahalaşma müşahidə edilir. Kişi salonunda çalışanlar da bahalaşmanı onlara lazım olan ləvazimatların baha satılması ilə əlaqəli olduğunu deyirlər.

Apardığımız müşahidə devalvasiyanın gözəllik salonlarını da vurduğunu, işlərinin azaldığını, hətta bir neçə kiçik gözəllik salonunun bağlanma təhlükəsi ilə üz-üzə qaldığını deməyə əsas verir.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Böhran "Bu şəhərdə"yə də təsirsiz ötüşmədi

## **Müşfiq Abbasov:** "Heç nəyi dollarla almadığımızdan konsert zalının orta sıraları üçün nəzərdə tutulan biletlərin qiymətini aşağı salmışıq"



**Mart ayında konsert verməyə hazırlaşan "Bu şəhərdə" komandası konsert günlərinin sayını azaldıb. "8 March" adlı konsert proqramı ilə Heydər Əliyev sarayında çıxış edəcəklərini qeyd edən yumoristlər martın 6-10-u tarixlərində 5 gün səhnəyə çıxacaqlarını bildirmişdilər. Ötən gün əməkdar artistlər sosial şəbəkədə konsert günlərinin sayının 3 gün olacağın bildirən afişanın fotosunu paylaşıblar. Onlar "8 Mach" adlı konsert proqramı ilə martın 6-8-i tarixlərində tamaşaçı qarşısına çıxacaqlar.**

Musavat.com konsert günlərinin sayının azaldılmasının səbəbini öyrənmək üçün "Bu şəhərdə"nin prodüseri Müşfiq Abbasovla əlaqə saxlayıb. M. Abbasov bildirib ki, bu dəyişiklik müvəqqətidir: "Konsertin adı "8 March" idi, dəyişib "8 Mach" etdik. Konsert gününün sayını müvəqqəti olaraq azaltmışıq, tezliklə sayını artıracağıq. Konsertə hazırlaşarkən heç nəyi dollarla almadığımızdan konsert zalının orta sıraları üçün nəzərdə tutulan biletlərin qiymətini aşağı salmışıq. Baxmayaraq ki, hər kəs hər şeyin qiymətini qaldırır. Konsert günündə dəyişiklik etməyimizin Vergilər Nazirliyi ilə əlaqəsi yoxdur, hər şey yolundadır. Apreldə İsrail və Amerikada konsert verməyimizi təklif ediblər. Orada da tamaşaçı qarşısına çıxmağı düşünürük".

Qeyd edək ki, konsert 8 Mart Beynəlxalq Qadınlar gününə həsr olunub.

❑ **Könül İBRAHİM**



# Spirtli içkilərin kartla satışına dair rəsmi açıqlama

## "Digər növ məhsulların nağd formada satışına heç bir qadağa qoyulmayıb"

**"Azərbaycanda artıq xeyli müddətdir ki, digər növ məhsulların satışı həm kart, həm də nağd formada ödənişlə həyata keçirilir". Bu fikri musavat.com-a açıqlamasında ölkədə spirtli içkilərin nağd pulla satışına tətbiq edilən qadağadan danışan İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev deyib. O bildirib ki, digər növ məhsulların nağd satışına qadağanın qoyulması nəzərdə tutulmayıb:**

"Spirtli içkilərin kartla satışına qoyulan qadağa isə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın bu ilin 1 yanvar tarixindən qüvvəyə minməsi ilə əlaqədardır. Qaydaya əsasən aksiz markaları ilə markalanmalı olan malların siyahısına içməli spirt, spirtli içkilərin bütün növləri, pivə və pivə tərkibli digər içkilər və tütün məmulatları daxildir. Lakin bundan başqa digər növ məhsulların nağd formada satışına heç bir qadağa qoyulmayıb. Vətəndaş digər növ məhsulları həm kartla, həm də nağd formada ödəniş etməklə ala bilər".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
Son səhifə
N 3 (6324) 7 yanvar 2016



## Azərbaycan dünyanın ən xoşbəxt dörd ölkəsi sırasında

**Azərbaycan dünyanın ən xoşbəxt dörd ölkəsi sırasında yer alıb. Report-un xəbərində bildirilir ki, bunu "Gallup" analitik şirkətinin keçirdiyi sorğu göstərir. Sorğunun nəticələrinə görə, Kolumbiya dünyanın ən xoşbəxt ölkəsidir (rəyi soruşulanların 85 faizi bunu deyib). Cənubi amerikalıları Fici və Səudiyyə Ərəbistanı (hər ikisi 82%), eləcə də Azərbaycan (81 %) izləyir. Sonrakı pillələrdə Vyetnam (80 %), Argentina və Panama (79 %) qərarlaşıb. Azərbaycanda respondentlərin 33 faizi 2016-cı ilin yenicə başa çatan 2015-ci ildən daha yaxşı olacağını deyib. 19% bədbinliyini ifadə edibsə, 23% respondent neytrallığını qoruyub.**

Ölkədə iqtisadi inkişaf perspektivləri barədə sualı cavablayarkən rəyi soruşulanların 36 faizi hər şeyin daha yaxşı olacağına inandığını söyləyib. 21% respondent mənfi nəticələr gözləyirsə, 11% iqtisadiyyatın elə eyni səviyyədə qalacağını düşünür. Respondentlərin 66 faizi həyatlarından razı olduğunu bildirib. 10% rəyi soruşulan xoşbəxt deyil, 23% isə nə xoşbəxt olduğunu, nə də xoşbəxt olmadığını deyib. Sorğuya əsasən, özlərini ən az xoşbəxt hiss edənlər iraqlılardır.

Qeyd edək ki, sorğuda dünyanın 68 ölkəsindən 66 mindən çox respondent öz fikrini bildirib.

# Kredit kartı ilə rekord qırdı

**Dostları ilə bəhsə girdikdən sonra 45 ildən çox müddətdə 1497 ədəd kredit kartı toplayan amerikalı "Ginnesin rekordlar kitabı"na düşüb. Amerikanın Kaliforniya ştatının Santa Klara bölgəsində yaşayan 73 yaşlı Valter Cavanag dünyanın ən çox kredit kartına sahib olan adamdır.**



Cavanag kredit kartı toplamağa 1960-cı illərin sonunda başlayıb. Onun bu işə başlamasının səbəbi isə dostu ilə mübahisə etməsi, daha sonra isə kredit kartı toplamaq üçün bəhsə girməsi olub. Onların bəhsinə görə, ilin sonuna qədər ən çox kredit kartı toplayan digərinə yemək alacaqdı. İlin sonunda Cavanag 143, dostu isə 138 ədəd kredit kartı yığa bilib. 1497 ədəd kredit kartı olan kişi 1,7 milyon dollar kredit çəkə bilər. Amma o, kredit kartlarından yalnız birini istifadə edir və hər ay onun pulunu ödəyir.

# Dünyanın ən böyük sapfiri tapılıb

**Şri-Lankada dünyanın ən böyük mavi sapfiri tapılıb. Çəkisi 1404.49 karat olan sapfir 175 milyon dollar dəyərində qiymətləndirilir. Qiymətli daşa "Adam ulduzu" adı verilib. Hələ ötən ilin avqustunda Ratnapura əyalətində tapılan sapfirin sahibi adını və ona nə qədər vəsait ödədiyini anonim saxlayır. "Əvəzsiz muzey eksponatı olan bu qiymətli daş o qədər böyükdür ki, zinət əşyaları üçün nəzərdə tutulan heç bir çərçivəyə sığmır", - deyə sapfirin sahibi bildirib.**

"Parlaq sapfirlər" növünə aid olan bu daş müəyyən emal proseslərindən sonra daha da parlaq olur ki, bu da onun dəyərli olduğunu göstərir. Daha bir qiymətli daş 2015-ci ilin noyabrında tapılıb. Bu XIX əsrin ən böyük almazı hesab olunur. Botsvanada çıxarılan almaz 111 karatdır. Almazın eni 6.5, hündürlüyü isə 5.6 sm-dir. Dünyanın ən böyük almazı 1905-ci ildə Cənubi Afrikada tapılıb. Bu almaz 3106 karat idi və İngiltərə kral ailəsinə aiddir.





## 300 kiloluq cəsədi traktorla basdırdılar

**Türkiyənin Qaziantep vilayətində qeyri-adi dəfn hadisəsi baş verib. 300 kq çəkisi olan 39 yaşlı Mustafa Erkan Öztürkün cəsədini evdən çıxarmaq mümkün olmayıb. Onun qohumları bu məqsədlə Dövlət Yanğından Mühafizə Xidmətindən yardım istəyib. Öztürkün cəsədi xüsusi avadanlıq və vasitələrlə əvvəl məscidə aparılıb. Burda yuyulub kəfənlənən və cənazə namazı qılınan Mustafa Erkanın nəşi daha sonra dəfn olunmaq üçün yük maşını ilə məzarlığa aparılıb. İnsan qüvvəsi ilə götürülməsi mümkün olmayan 300 kiloluq cəsəd traktorun yardımı ilə məzara qoyularaq dəfn edilib. Mərhumun qohumları göstərdiyi dəstəyə görə Qaziantep bələdiyyəsinə öz təşəkkürünü bildirib.**




QOÇ - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra işləriniz qaydasında gedəcək.

BUĞA - Perspektivlərinizi reallaşdırmaqda tənbəllik edirsiniz, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Sonra başqalarında günah görməmək üçün münasib addım atın.

ƏKİZLƏR - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

XƏRÇƏNG - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Onu da nəzərə alın ki, bu təqvim qazanc üçün çox səmərəlidir.

ŞİR - Əvvəlki günlərdən fərqli olaraq bu ərəfədə rahatlıq əldə edəcəksiniz. Hər hansı konfliktlə üzləşmə ehtimalınız da yoxdur. Sağlamlıqla bağlı sıxıntılarınız kifayət qədər səngiyəcək.

QIZ - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra şəxsi büdcənizi artırmağa şanslı olacaqsınız.

TƏRƏZİ - Yeni ideyalarınızı reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Günün ikinci yarısını sövdələşmələrə həsr edin.

ƏQRƏB - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

OXATAN - Ay bürcünüzdə olduğundan yersiz risk etməyin. Əgər haqlısınızsa, bunu gec-tez hamı biləcək. Saat 17-dən sonra şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Təşəbbüskar özünüz olun.

OĞLAQ - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Çünki ixtiyarınızda olan bu tarix deyilən məsələlər üçün önəmli deyil. Amma səfər və səyahətlər üçün uğurlu vaxtdır.

SUTÖKƏN - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin və imkan daxilində müqəddəs ziyarətgahlarımızdan birinə üz tutun.

BALIQLAR - Əsas diqqətinizi fəaliyyət istiqamətinə yönəldin. Qarşılıqlı münasibətlərdə, alış-veriş məsələlərində isə hansısa müvəffəqiyyət gözlənilmir. Axşam bütün risklərdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bir balığa 117 min dollar ödədi

**Yaponiyanın "Suşi müdiri" olaraq tanınan məşhur biznesmen bir balığa 117 min dollar ödəyərək hər kəsi təəccübləndirib.**



**Kiyoşi Kimura adlı biznesmen böyük ton balığı hərraca çıxarıldıqdan sonra onu almağa qərar verib. Hərracın sonunda isə balığı 117 min dollara alıb. Tsukiji balıq bazarında təşkil edilmiş hərracda ötən ilkindən 3 qat baha qiymətə satış reallaşıb. Lakin 2013-cü ildə həmin cinsdən olan başqa bir balıq 1,3 milyon dollara satılmışdı.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300